

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 16 (807) ▪ 27 aprel 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu






*Aprelin 26-da Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və dünyanın 140 ölkəsindən dəvət olunmuş qonaqlar mərasimdə iştirak ediblər.*

BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna Bakının ev sahibliyi etməsi təsadüfi deyil. Çünki tolerantlığın məkanı, multikultural dəyərlərə sadiq olan müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanmasına və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönələn mühüm layihələrin reallaşdırılması, mötəbər forumların keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir.

«İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd» devizi altında keçirilən Foruma BMT-yə üzv ölkələrin dövlət və hökumət başçıları, xarici işlər nazirləri, siyasi liderlər, tərəfdaş qurumlar, beynəlxalq və regional təşkilatların nümayəndələri, özəl sektor, incəsənət, media və akademiyaların təmsilçiləri, donor təşkilatlar və fondlar daxil olmaqla, çoxlu qonaq qatılıb. Odur ki, Forumun Bakı şəhərində yüksək səviyyədə təşkili Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun daha da artırılmasında, xalqımızın tarixi-mədəni irsinin geniş miqyasda tanıdılmasında əhəmiyyətli rola malikdir.

Dövlətimizin başçısı Forumda nitq söyləyib. Belə bir mötəbər tədbirin Azərbaycanda keçirilməsinin böyük şərəf olduğunu, ölkəmizin multikulturalizm dəyərlərini uğurla yaydığını qeyd edən Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının yaradılması təşəbbüsü ilə çıxış etdiklərinə görə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və İspaniyanın keçmiş Baş naziri Xose Luis Rodrigez Sapateroya təşəkkür edib. Dövlətimizin başçısı bildirib ki, əsrlər boyu mədəniyyətlər və dinlərin kəsişməsində yerləşən Azərbaycanda dinlər, mədəniyyətlər tarixən inkişaf edib: «Azərbaycanda hər zaman tolerantlıq, multikulturalizm mövcud olub. Ona görə də Azərbaycanda bütün etnik qruplar və dinlər bir arada yaşayır, yaradırlar. Bu, zənginliyimizdir, biz tariximizlə fərəhlənirik. Müxtəlif mədəniyyətlərin nümayəndələri Azərbaycanda yaşayıb, yaradıblar. Azərbaycanda ən qədim kilsələr, alban kilsələri, o cümlədən Şamaxıda ilk məscidlərdən biri yerləşir. Biz sinaqoqların bərpası ilə məşğul olmuşuq. Azərbaycan əsrlər boyu bu zənginlikləri qoruyub saxlayıb».

Azərbaycanın bir çox beynəlxalq təşkilatlarda fəal iştirak etdiyini, 2011-ci ildə respublikamızın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildiyini deyən dövlətimizin başçısı Azərbaycanın daim müstəqil xarici siyasət yürütdüyünü, regional inkişafa töhfə verdiyini, müstəqillik illərində mühüm dövlət təsisatlarının formalaşdığını, bütün azadlıqların təmin edildiyini, siyasi və iqtisadi islahatların aparıldığını diqqətə çatdırıb. Bildirib ki, 2008-ci ildə Azərbaycanın irəli sürdüyü təşəbbüslə Bakıda həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının bir çox tədbirləri baş tutub. Ötən il ilk Avropa Oyunları keçirilib, gələn il isə paytaxtımız İslam Həmrəylik Oyunlarına ev sahibliyi edəcək.

**Davamı 2-ci səhifədə**

# Azərbaycan bayrağı altında üzən gəmilərin sayı artır

*Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı gəmiqayırma zavodunda «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə inşa edilən «Üfüq», «Zəfər» və «Turan» sərnişin gəmilərinin istismara verilməsi mərasimində iştirak edib. Dövlətimizin başçısına zavodda inşa edilən gəmilər barədə məlumat verilib. Bildirilib ki, hazırda gəmiçiliyin donanması üçün zəruri olan müxtəlif təyinatlı gəmilərin inşası ilə bağlı danışıqlar aparılır. Onların arasında tankerlər, quru yük gəmiləri, konteynerdaşıyan gəmilər, kran, yanğınsöndürən, yedək-təchizat, təchizat və nəqliyyat gəmiləri var.*

Gəmilərin hamısı körpüdə və dənizdə sınaqlardan uğurla keçib və istismara hazır vəziyyətdədir. Onların hər biri 80 sərnişin tutumuna malikdir. Uzunluğu 38 metr, eni 8 metr, suya oturumu 2,25 metr olan gəmilərin gövdəsi polad, üst tikililəri isə alüminium materialdan hazırlanıb. Yüngül materialların tətbiqi, hərəsinin gücü 1920 kilovat olan iki baş mühərrikin qoyulması sərnişin gəmilərinə saatda 35 kilometrə yaxın sürət yığmağa imkan verir. Bu, mövcud gəmilərin sürəti ilə müqayisədə iki dəfə çoxdur. Eyni zamanda, yeni gəmilər göyərtələrinə 10 tonadək müxtəlif yük də götürə bilir. Beləliklə, neftçilərin və yüklərin dəniz platformalarına daha tez və rahat çatdırılması təmin ediləcək.



Sonra Prezident İlham Əliyev «Üfüq» sərnişin gəmisinin istismara verilməsini bildirən düyməni basıb. Qeyd olunub ki, yeni sərnişin gəmilərinin inşası Azərbaycanın iqtisadi və sənaye potensialının gücləndirilməsində mühüm rol oynayan Bakı gəmiqayırma zavodunun növbəti uğurudur. Zavod Azərbaycanın gəmiçilik sahəsində idxaldan asılılığının aradan qaldırılmasına xidmət edərək, Xəzər donanmasını müasirləşdirməyə imkan verir. Eyni zamanda, bu zavod ixrac potensialımızın gücləndirilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.

Hazırda Bakı gəmiqayırma zavodunda BP şirkətinin sifarişi ilə «Xankəndi» sualtı tikinti gəmisinin inşası aparılır. Bu, indiyə qədər Bakı gəmiqayırma zavodunda icra olunan ən mühüm sifarişdir. Gəmi Xəzər dənizində xüsusi təyinatlı əməliyyatların həyata keçirilməsi üçün nəzərdə tutulub və DNV GL Norveç və Almaniya təsnifat cəmiyyətinin nəzarəti altında tikilir. Gəmidə 600 metr dərinlikdə sualtı quraşdırma və yükqaldırma işləri üçün 900 tonluq əsas kran qoyulacaq. Bundan əlavə, dərin sularda mürəkkəb dalğıc əməliyyatları üçün 18 nəfərlik dalğıc kameraları və məsafədən idarə olunan iki sualtı robotla təchiz ediləcək. Dinamik mövqe idarəetmə sistemi-DP3 ilə təchiz olunmuş gəminin uzunluğu 155, eni 32, bortunun hündürlüyü isə 13 metr təşkil edir. Ümumi gücü 32 min kilovat olan gəmidə 8 mühərrik quraşdırılıb ki, bu da onun layihəyə uyğun olaraq 13,5 uzel sürətini təmin edəcək. 175 nəfərlik kayutlarla təchiz olunan gəminin layihəsi üzrə işlərin artıq 80 faizi yerinə yetirilib və 2017-ci ilin aprelində sifarişçiyə təhvil verilməsi planlaşdırılır.

Gəmiçiliyin strategiyasına müvafiq olaraq, Xəzərdən kənar sularda fəaliyyətin genişləndirilməsi məqsədilə yaxın vaxtlarda hər birinin 5500 ton yükgötürmə qabiliyyəti olan altı quru yük gəmisi istismara veriləcək. Bununla da Xəzərdən kənarda, Qara və Aralıq dənizləri hövzələrində Azərbaycan bayrağı altında üzən gəmilərimizin sayı 11-ə çatacaq.

# Türkiyə Prezidentinin Azərbaycana işgüzar səfəri

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və ölkəmizə işgüzar səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü olub. Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı qarşılayıblar.

Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib. Yüksək səviyyəli görüşlərin əməkdaşlığın inkişafı baxımından önəmi vurğulanıb, əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminlik bildirilib. Görüş zamanı Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun əhəmiyyəti vurğulanıb və bu tədbirin beynəlxalq əməkdaşlıq işinə töhfə verdiyi qeyd olunub. Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

# Xarici ölkələrin hökumət nümayəndələri ilə görüş

Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda iştirak etmək üçün ölkəmizə gəlmiş bir sıra ölkələrin hökumət nümayəndələrini qəbul edib. Dövlətimizin başçısı Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan-Fransua Manselin başçılıq etdiyi nümayəndə heyətini, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) tolerantlıq üzrə dövlət naziri xanım Şeyxə Lubna Al Qassimini, Qazaxıstan parlamenti Senatının sədri Kasım-Jomart Tokayevin başçılıq etdiyi nümayəndə heyətini, Belarus Respublikası Milli Məclisinin sədri Mixayil Myasnikoviçi qəbul edib.

Görüşlərdə iqtisadi-siyasi, mədəni əlaqələrin vəziyyəti və digər sahələrdə münasibətlərin inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb, Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun əhəmiyyətindən danışılıb, beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından bu tədbirin rolu xüsusi qeyd olunub.

Prezident İlham Əliyev həmin gün BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasiri də qəbul edib. Dövlətimizin başçısı Nasir Əbdüləziz Əl-Nasirin Azərbaycanın yaxın dostu olduğunu, BMT-Azərbaycan tərəfdaşlığının genişləndirilməsində əhəmiyyətli rol oynadığını vurğulayıb. Prezident İlham Əliyev BMT-nin Azərbaycanla qarşılıqlı əlaqələrinin inkişaf etdirilməsində və mədəniyyətlərarası dialoqun qurulmasında səmərəli fəaliyyətinə görə Nasir Əbdüləziz Əl-Nasirin Azərbaycanın yüksək dövlət mükafatlarından olan «Dostluq» ordeni ilə təltif olunduğunu deyib və orden ona təqdim edib.

# BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu



**Əvvəli 1-ci səhifədə**

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev bildirib ki, erməni işğalçıları tərəfindən Xocalıda misli görünməmiş qətliam törədilib, 600-dan çox uşaq, qadın və qoca amansızlıqla qətlə yetirilib. ATƏT-in Faktaraşdırıcı Missiyasının hesabatında işğal altında olan ərazilərdə mədəni və dini abidələrin dağıdıldığı əksini tapıb: «Ancaq Azərbaycanda erməni kilsəsi bərpa olunub. Beynəlxalq ictimaiyyət, BMT Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasını tələb edir. Amma Ermənistan bu qətnamələrə məhəl qoymur. Bəzi hallarda görürük ki, BMT qətnamələri bir neçə saat, bir gün ərzində həyata keçirilir. Azərbaycana gəlincə, 20 ildən artıqdır, bu qətnamələr yerinə yetirilmir. ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı da belə qərarlar qəbul edib. Ancaq Ermənistan bunlara əməl etmir, işğalçıya heç bir beynəlxalq təzyiq də göstərilmir».

Prezident İlham Əliyev ölkəmizin durmadan inkişaf etdiyini, son illərdə işsizliyin və yoxsulluğun azaldılması ilə bağlı ciddi tədbirlərin görüldüyünü, təhsil və səhiyyə problemlərinin uğurla həll olunduğunu, gender bərabərliyinin təmin edildiyini, ekoloji problemlərin həlli istiqamətində tədbirlər həyata keçirildiyini də xatırladıb.

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrinin müəllifi və iştirakçısıdır: «Şərq-Qərb nəqliyyat dəhlizi yeni bir İpək Yolu olacaq. Azərbaycan Şimal-Cənub dəhlizinin yaradılmasında da aktiv iştirak edir. Əgər ölkələr qarşılıqlı əlaqədədirsə, daha çox inkişaf edirlər. Biz daha yaxşı əməkdaşlıq formalarının yaranması istiqamətində çalışırıq».

Forumda çıxış edən BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir 2016-cı ilin Azərbaycanda «Multikulturalizm ili» elan edilməsini dünya xalqları arasında münasibətlərin möhkəmləndirilməsi yolunda mühüm addım kimi qiymətləndirib. Qeyd edib ki, hazırda zorakı ekstremizmin aradan qaldırılması, dünyada zorakılıq hallarının azaldılması qarşıda duran vacib məsələlərdən biridir və bu missiyanın həyata keçirilməsində gənclərin dəstəyindən, onların fəaliyyətindən istifadə olunmalıdır.

BMT-nin baş katibi Pan Gi Mun videomüraciətində Bakıda bu tədbirin keçirilməsinə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıq edib. Hazırda dünyanın və insanların ciddi böhranlar dövrü yaşadığını deyən baş katib ayrı-seçkiliyin və təcridolunmanın yalnız ekstremist arzuların yayılmasına xidmət etdiyini və bu problemlərin həllində bütün cəmiyyətləri birgə səy göstərməyə çağırıb. Budəfəki Forumun mövzusunun BMT-nin 2030-cu ilədək elan etdiyi məqsədlərə uyğun olduğunu deyən Pan Gi Mun diqqəti bütün münaqişələrin sülh yolu ilə həllinin vacibliyinə cəlb edib. O, müraciətində Sivilizasiyalar Alyansının işini təqdir edib və bütün dünyada etimadın artırılması yolunda çalışmağın zəruriliyini vurğulayıb.

Tədbirdə nitq söyləyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan növbəti dəfə Bakıya gəlməkdən məmnun olduğunu deyərək, bu Forumun 2016-cı ilin «Multikulturalizm ili» elan edilən Azərbaycanda keçirilməsinin əhəmiyyətinə toxunub. Hazırda Sivilizasiyalar Alyansının BMT-nin ən önəmli qurumlarından birinə çevrildiyini deyən Türkiyə Prezidenti Alyansın məqsədlərinə nail olunması istiqamətində görülən işlərin hələ də yetərli olmadığını bildirib. Qeyd edib ki, dünyanın müxtəlif yerlərində baş verən qanlı toqquşmalar və terror aktları hələ də bizə çox işləməyin vacibliyini xatırladır. O, dünyada İslam dininə qarşı yönələn yanlış fikirlərin və təhdidlərin yolverilməzliyini, terror təşkilatlarını İslamla əlaqələndirməyin qətiyyən doğru olmadığını diqqətə çatdırıb: «İnsanların inancları, etnik mənsubiyyəti ilə bağlı ayrımçı düşüncələri hələ tam ortadan qaldıra, terrorizmə qarşı bizdən gözlənilən ortaq mücadiləni yetərli qədər ortaya qoya bilməmişik. Suriyada, Fransada, Belçikada, İspaniyada, Türkiyədə, Pakistanda ard-arda bombalar parlayarkən məqsədimizi ortaq fikrə, ideyaya çevirməyi bacarmadıq. Zorakılığın qarşısının alınması üçün dialoqu inkişaf etdirməyin zəruriliyini bütün dünyaya qəbul etdirə bilməmişik. Etnik və dini fərqliliyin təhdid deyil, zənginlik olduğu barədə anlayışı yaymağı bacarmamışıq». R.T.Ərdoğan qeyd edib ki, bu təhlükəli gedişə son vermək zəruridir: «Dini və etnik səbəblərlə qarşıdurmalar nəticəsində 60 milyondan çox insanın evindən didərgin düşdüyü reallıqda yaşayırıq. Miqrantların bir qismi sulara gömülür, bir qismi isə getdikləri yerlərdə xoş qarşılanmır. İslam adına terror törədənlər ən böyük pisliyi müsəlmanlara qarşı törədirlər». Türkiyə Prezidenti qeyd edib ki, bütün təhdidlərin qarşısı ancaq ortaq mübarizə sayəsində alına bilər və terrora qarşı qlobal ittifaq yaradılmalıdır, əks halda, terrorla uğurla mübarizə apara bilmərik.




Forum çərçivəsində keçirilən BMT Sivilizasiyalar Alyansının Dostları Qrupunun yüksək səviyyəli iclasında Bakı Bəyannaməsi qəbul olunub. Sənəddə qeyd olunur ki, Bakı Bəyannaməsi mədəni və dini müxtəlifliklərə hörmət və anlaşmanın vacibliyini qeyd edir, müxtəlif mədəniyyətlər, sivilizasiyalar və insanlar arasında tolerantlıq, hörmət, dialoq və əməkdaşlığı təbliğ edir. Bəyannamədə sülh, təhlükəsizlik və inkişafın genişlənməsində universal dəyər kimi Sivilizasiyalar Alyansının moderatorluğunu genişləndirəcəyi vurğulanır, dünyanın mədəniyyət müxtəlifliyi və mədəni irsinin bütün xalqlar arasında sülh faktoru və inkişaf kimi hər kəs tərəfindən qorunmasının vacibliyi bildirilir, mədəni irslərə qarşı davamlı və geniş miqyasda qanunsuz aktların baş verməsi ilə bağlı narahatlıq ifadə olunur, sülh və təhlükəsizliyin, insan haqlarının və dayanıqlı inkişafın təbliğ olunması üçün mədəni irsə hörmətin vacibliyi vurğulanır.

Bakı Bəyannaməsində mədəniyyətlərarası və dinlərarası dialoqun, tolerantlıq, plüralizm və qarşılıqlı hörmət sahəsində əməkdaşlığın vacibliyi qeyd olunur. Günahsız insanların ölümünə, dağıntılara və insanların qaçqın düşməsinə səbəb olan, dünyanın müxtəlif yerlərində qeyri-tolerantlıq, zorakı ekstremizm, zorakılıq və terrorizm aktlarından narahatlıq ifadə olunan sənəddə, həmçinin, fərq qoymadan bütün insan hüquq və azadlıqlarına hörmətlə bağlı BMT Xartiyası qarşısında üzv ölkələr tərəfindən götürülən öhdəlik dəstəklənir, gender bərabərliyinin vacibliyi qeyd olunur.

Forum öz işini plenar və bölmə iclasları, BMT-nin Sivilizasiyalar Alyansının yüksək səviyyəli toplantısı ilə davam etdirir.

# Supermarketlərin problemlərinin kökündə nə dayanır?

## *ƏDV, kifayət qədər səmərəli olmayan idarəetmə, yoxsa şəffaflıq?..*

Prezident İlham Əliyevin sərəncamı ilə ölkə iqtisadiyyatında sahibkarların artan rolu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyəti nəzərə alınmaqla və cəmiyyətdə sahibkarlığa dəstək vermək məqsədilə hər il aprel ayının 25-nin «Sahibkarlar Günü» kimi qeyd edilməsi qərara alınıb. Dövlət başçısının cəmiyyətin fəal təbəqəsi olan sahibkarlar ordusuna münasibəti həmişə birmənalı olub: «Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır. Biz bu istiqaməti seçmişik və bu istiqamət bizə uğurlar gətirir».

Yeni iqtisadi şərait, iqtisadi islahatların dərinləşməsi və şəffaflığın daha da gücləndirilməsi həm dövlət orqanlarından, həm də sahibkarlardan öz fəaliyyətlərini müasir tələblər əsasında, düzgünlük, şəffaflıq, qanunlara uyğun qaydada qurmağı tələb edir. Özəl sektora tətbiq olunan müxtəlif güzəştlər, biznes sahəsində yoxlamaların dayandırılması, lisenziyaların sayının azaldılması, gömrük rəsmiləşdirilməsinin şəffaflaşdırılması, bir sıra sahələrdə vergi güzəştlərinin tətbiqi, vergi uçotunun düzgün aparılması və digər islahatlara baxmayaraq, bu sahədə bəzi problemlər hələ də aktual olaraq qalır.

### Vergiləri ödəmək hər kəsin borcudur

İqtisadi və sosial proqramların icrasında dövlət büdcəsinə ödənilən vergilərin mühüm əhəmiyyət kəsb etdiyi hamıya məlumdur. Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsində təsbit edilib ki, vergiləri və digər dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur. Vergi Məcəlləsinin 16-cı maddəsində göstərilib ki, vergiləri və digər məcburi ödənişləri ödəmək vergi dəyicisinin vəzifəsidir. Vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət etmək isə, Məcəllənin 24-cü maddəsinə əsasən, vergi orqanlarının vəzifələrinə aid edilib.

Azərbaycanda əlverişli biznes mühitinin, səmərəli vergi rejimi və vergi yükünün olması nəticəsində, mövcud iqtisadi çətinliklərə baxmayaraq, ölkədə sahibkarlıq subyektlərinin sayı artmaqda davam edir. 2016-cı ilin birinci rübündə 28.434 vergi ödəyicisi, o cümlədən 316 ƏDV ödəyicisi qeydiyyata alınıb. Müqayisə üçün: 2015-ci ilin birinci rübündə 19.984 vergi ödəyicisi, o cümlədən 126 ƏDV ödəyicisi qeydiyyata alınmışdı. Bu dövrdə VÖEN-i ləğv olunmuş vergi ödəyicilərinin sayı isə 8482-dir. Göründüyü kimi, dinamika müsbətdir və sahibkarlıq sahəsində güclərini sınamaq istəyənlərin sayı kifayət qədər çoxdur.

Son günlər ictimaiyyətdə geniş müzakirə mövzusuna çevrilən məsələlərdən biri də iri ticarət şəbəkələrinin (supermarket) vergi güzəştləri xahiş etmələridir. Ötən həftə ölkənin iri supermarket şəbəkələrinin rəhbərləri İqtisadiyyat Nazirliyinə müraciət edərək, respublikada istehsal olunan sosial əhəmiyyətli ilkin tələbat məhsulları üzrə əlavə dəyər vergisinə (ƏDV) sıfır faiz dərəcəsinin tətbiqi, ət, balıq, süd, un məmulatları, yumurta, düyü, yağ, meyvə, tərəvəz və uşaq qidaları üzrə ƏDV-nin ləğvi təklifini irəli sürüblər. «Vergilər» qəzetinin geniş oxucu auditoriyası üçün maraqlı olacağını nəzərə alıb, bu istiqamətdə bəzi araşdırmalar apardıq. Nəticələr nə göstərir?

### Sahibkarların qaldırdıqları məsələlər araşdırılır

İqtisadiyyat Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Abbas Əliyevin sözlərinə görə, sahibkarların müraciəti ilə əlaqədar aprelin 20-də iqtisadiyyat naziri Şahin Mustafayev bəzi supermarket şəbəkələri nümayəndələrini qəbul edib, onların təkliflərini dinləyib və problemləri müzakirə edib: «Sahibkarlar topdan və pərakəndə satışda ƏDV-dən azad olunmaları üçün müraciət etmişdilər. Nazirlik həmin şəxslərin müraciətinə operativ reaksiya verdi, nümayəndələrlə görüş keçirildi. Hazırda bu məsələ araşdırılır, yaxın günlərdə sahibkarlara məlumat veriləcək».



### Market sahiblərinin mövqeyi

Məsələ ilə bağlı «Rahat Market» şəbəkəsinin rəhbəri Cəlal Babakişiyev mətbuatda geniş açıqlama verib. Bildirib ki, pərakəndə ticarət şəbəkələri əhaliyə məhsul satır və bu əməliyyatlar zamanı büdcəyə müəyyən ƏDV ödəməlidirlər: «Biz - supermarketlər bu halda vergi agenti olaraq çıxış edirik. Həmin toplanmış (məhsulun son qiyməti) vergini dövlət büdcəsinə ödəyirik. Yəni biz bu zəncirin - istehsalçı, idxal, məhsul alış-satışı, vergi ödəyənlər və vergi ödəməyənlərin hamısının əvəzinə bu işi görürük. Hazırda biz - pərakəndə, xüsusilə ərzaq məhsullarının satışı üzrə ixtisaslaşanlar nə ilə qarşılaşmışıq? Vergitutma ilə bağlı mağazaların bütün məhsul dövriyyəsi 18%-lik ƏDV-yə daxildir. Lakin malların əhəmiyyətli payına görə (30%-dən çox məhsul dövriyyəsi) pərakəndə satışların təchizatçılarını ƏDV-nin hesabına qəbul etmək imkanları yoxdur. Çünki onlar ƏDV ödəyiciləri hesab olunmurlar. Burada yerli kənd təsərrüfatı məhsullarını istehsal edənlər sahibkarlardır ki, ƏDV ödəyiciləri hesab olunmur. Həmin təchizatçılar məhsullarının ilkin buraxılış qiymətini aşağı salmırlar, bu da məhsula ƏDV tətbiq etməyə imkan vermir. Nəticədə pərakəndə ərzaq satışı mağazaları ya piştaxtalardakı məhsulların üçdə birinə 18% tətbiq etməli, ya da bu adda olan çeşidlərdən imtina etməli olurlar».



### Hamı vergi güzəşti istəyəcəksə, dövlət büdcəsinə kim vəsait ödəməlidir?

Ölkənin tanınmış iqtisadçılarının məsələyə münasibəti müxtəlifdir.

İqtisadçı alim Qubad İbadoğlu supermarketlərin probleminin yalnız vergilərdən yaranan əlavə xərclərlə deyil, əsas problemin alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı olduğunu qeyd edib: «Marketlərin əvvəlki qədər dövriyyələri yoxdur. İşçilərinin sayı çoxdur, onları ixtisar etmək məcburiyyətindədirlər. Başqa ölkələrdə bir çox işçilərin gördüyü iş avtomatlaşdırılmış qurğular vasitəsilə həyata keçirilir. Əgər bu gün hamı vergi ödəməkdən qaçacaqsa, vergi güzəşti istəyəcəksə, Azərbaycanın dövlət büdcəsinə kim vəsait ödəməlidir?».



İqtisadçı Məhəmməd Talıblı isə daha konkret açıqlama verərək bildirib ki, bəzi marketlər yeni dövrün tələblərinə adaptasiya oluna bilmirlər: «Supermarketlər xeyli vaxtdır ki, rezervlər hesabına bazarın sərt tələblərinə birtəhər dözsələr də, indi vəziyyət çətinləşib. Uzun illər proteksiya siyasəti ilə əhatə edildiklərindən, indi fərqli mühitdə az marjalı fəaliyyətə adaptasiya oluna bilmirlər. Daim böyük gəlir əldə etmək vərdişi, rəqabətsiz mühit şərtləri, fiskal qurumlara simvolik ödəmələr, istehlakçıların sel kimi həmin şəbəkələrə axışması supermarketləri tənbəl öyrətmişdi. İndi, faktiki olaraq, iki problem özünü qabarıq şəkildə göstərməkdədir. Birincisi, onlar əvvəlki qədər dövriyyələrini gizlədə bilmirlər və eyni zamanda, əvvəlki səviyyədə qiymətləri artıra bilmirlər».





Hüquqşünas Xəyal Məmmədxanlı bildirir ki, devalvasiyadan sonra hökumətin qiymət siyasətinə kəskin müdaxiləsi, süni qiymət artımlarının qarşısını alması, eyni zamanda gömrük rəsmiləşdirməsinin şəffaflaşdırılması və leqallaşdırılması idxal edilən məhsulların maya dəyərini artırıb: «Eyni zamanda, bir sıra idxal məhsullarına tətbiq edilən rüsumlar da yüksəkdir. Market sahiblərinin narazılığına gəlincə, bu müraciət batmaqda olan yox, əvvəlki kimi qazana bilməyən iş adamlarının müraciətidir. Çünki onların gəlir marjaları ciddi şəkildə azalıb.

**Davamı 3-cü səhifədə**

# Supermarketlərin problemlərinin kökündə nə dayanır?

## *ƏDV, kifayət qədər səmərəli olmayan idarəetmə, yoxsa şəffaflıq?..*

**Əvvəli 2-ci səhifədə**

Dövlətdən güzəşt istəməkdənsə, bu vəziyyətdən ən yaxşı çıxış yolu odur ki, həmin marketlər xərclərinin strukturuna əl gəzdirməklə onu optimallaşdırsınlar. Artıq 20%-lik gəlir mənfəət marjası dövrü keçmişdə qaldı».



İqtisadçı ekspert Pərviz Heydərovun sözlərinə görə, bir sıra iri supermarketlərin devalvasiyalardan sonra yaranmış situasiya ilə əlaqədar hökumətdən vergi dərəcələrini aşağı salmasını istəmələri, əslində, absurddur: «Bu və ya digər subyektlər yeni bazar şərtlərinə uyğunlaşa bilmirlərsə, bunun günahını hökumətdə axtarmalı deyillər. Dövlət tənzimləyici orqandır, vergi siyasəti isə ümumi iqtisadi tələblərə əsasən təşkil olunur və həyata keçirilir, bu və ya digər qurumların, sahibkarların konkret iqtisadi maraqlarını təmin etmək onların vəzifəsi deyil».

### Vergi Məcəlləsi seçim hüququ verir



İqtisadçı Samir Əliyevin fikrinə görə, əvvəlki qanunvericiliyin qüvvədə olduğu elə supermarketlər şəbəkəsi var idi ki, ən azı 4-5 mağazası fəaliyyət göstərirdi, amma onların dövriyyəsi 120 min manatı keçmirdi. Bu isə reallığı əks etdirmirdi, çünki həmin supermarketlərin əksəriyyəti ƏDV ödəyicisi idi. Buna görə də qanunvericilikdə dəyişiklik olunmaqla marketlərə seçim hüququ verildi. Onlar ya 6% dərəcəsi ilə sadələşdirilmiş vergi rejimini seçməli, ya da ƏDV-yə keçməlidirlər. Reallıq bundan ibarətdir ki, neftin qiyməti düşənə qədər supermarketlər müxtəlif yollarla kifayət qədər vergidən yayınıblar. İndi isə ticarət şəbəkələrinə nəzarət gücləndirilib. Vergi nəzarəti zamanı məlum olur ki, onların dövriyyəsi 200 min manatdan dəfələrlə çoxdur. Belə dövriyyənin aşkarlanması isə marketlərin maraqlarına xidmət etmir. Çünki dövlətə mümkün qədər az vergi ödəyib, daha çox gəlir əldə etmək istəyirlər. Məhz bu səbəbdən də ƏDV-nin aradan qaldırılmasını istəyirlər».

### ƏDV istehlakçıdan tutulduğu üçün ticarət şəbəkəsinə vergi yükü yaratmır



İqtisadçı Rəşad Əliyevin fikrincə, məsələyə vergiqoymanın prinsipləri əsasında yanaşmaq lazımdır: «ƏDV dolayı vergi hesab olunur və buna görə də onun ödəyicisi son nəticədə istehlakçı hesab edilir. Yəni supermarket məhsulun üzərinə 18% ƏDV əlavə edib satır və faktiki olaraq, o pulu alıcıdan alır. Buna görə də satıcı üçün ƏDV dərəcəsinin 5, 10, 18 və ya 25% olmasının heç bir əhəmiyyəti yoxdur. Beləliklə, ƏDV-nin aradan qaldırılmasına vergi yükünün azaldılması aləti kimi baxılması məntiqsizdir. Bu, bütün dünyada belədir və əgər kimsə başqa cür fikirləşirsə, deməli, burada verginin özəlliklərinə aid olmayan kənar məsələlər var. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, ilkin tələbat məhsulları dedikdə nə nəzərdə tutulur?

Əgər söhbət kənd təsərrüfatı məhsullarından gedirsə, mövcud qanunvericiliyə uyğun olaraq, həmin məhsulların satışı üzrə dövriyyələr ümumiyyətlə ƏDV-dən azaddır».



İstehsalçılar və Tacirlər Birliyinin (İTB) sədri Sevgim Rəhmanov bildirir ki, ticarət mərkəzlərinin vergi yükünün artıq olması barədə dedikləri həqiqəti əks etdirmir, bu sahədə əsas problemlərin kökünü digər məsələlərdə axtarmaq lazımdır: «Bu gün ticarətin ən böyük problemi ticarət haqqında qanunun olmamasıdır.

İri marketlərin çoxu kirayəyə verilmiş obyektlərdə işləyir. Şəhərin mərkəzində obyektin 1 kvadratmetrinin kirayə haqqı 20-25 manatdır. Belə olan halda 3000-4000 kvadratmetrlik obyektin kirayə haqqı nə qədərdir? Niyə bundan danışmırlar? Marketlər qazanmırsa bu qədər yüksək kirayə haqqını necə ödəyirlər?».



İqtisadçı ekspert Nicat Hacızadə isə düşünür ki, iri supermarketlərin maliyyə hesabatları açıq olmalıdır: «İri supermarketlərdəki likvidlik dərəcəsi haqqında statistik rəqəmlər yoxdur. Yəni bu gün bizim əlimizdə hər hansı bir resurs yoxdur ki, hansısa supermarketin rüblük və ya illik likvidlik səviyyəsini müəyyən edə bilək».

### ƏDV-nin əvəzləşdirilməsi necə həyata keçirilir?

Bəzi ticarət şəbəkələrinin sahibləri təqdim etdikləri malların üçdə birinin ƏDV ödəyicisi olmayan kənd təsərrüfatı məhsullarının istehsalçılarından və ya sadələşdirilmiş vergi ödəyicilərindən aldıqlarını və bu səbəbdən həmin malların satışı zamanı ƏDV üzrə əlavə vergi yükünün yarandığını qeyd edirlər, buna görə də ƏDV üzrə vergi güzəştlərinin verilməsini təklif edirlər.

ƏDV vergi daxilolmalarında tədiyyələr üzrə birinci yerdə durur. Onun ümumi vergi daxilolmalarında xüsusi çəkisi 2016-cı ilin birinci rübündə 30,9% təşkil edib. Ticarət şəbəkələri tərəfindən satılan qida məhsullarının siyahısındakı əsasən süd, qatıq, ayran və digər ağartı məhsullarının əksəriyyəti ƏDV ödəyicisi olan yerli istehsalçı şirkətlərə məxsusdur. İdxal məhsulları olan meyvə-tərəvəzlər də ölkəyə idxal zamanı ƏDV ödənilməklə gətirilir. Yəni ƏDV-nin əvəzləşdirilməsi ilə bağlı ciddi bir problem olmamalıdır. Qalan az miqdarda məhsullar isə ƏDV ödəyicisi olmayan şəxslərdən alınır. İri ticarət şəbəkələrində satılan malların ümumi həcmində ƏDV-nin əvəzləşdirilməsi mümkün olmayan malların xüsusi çəkisi heç bir halda nəinki 30%, hətta bunun onda biri qədər də ola bilməz.



Vergilər Nazirliyinin idarə rəisi Nicat İmanovun sözlərinə görə, vergi nəzarəti tədbirlərində aşkar edilən əsas problemlərdən biri ƏDV ödəyicilərinin bir çox hallarda aparılan əməliyyatlara dair ilkin uçot sənədlərinə malik olmaması, yaxud müvafiq qaydada tərtib edilməyən sənədlərlə işləmələri ilə bağlıdır. Belə ki, malların dəyəri nağd qaydada ödənilir və malın kimdən alındığını müəyyən etmək mümkün olmur. ƏDV ödəyiciləri gəlirlərindən gəlirin əldə edilməsi ilə bağlı olan ilkin sənədlərlə təsdiq edilən xərcləri (təqdim etdikləri malların alış qiyməti, əməkhaqqı, kommunal, icbari ödənişlər və s.) çıxdıqdan sonra qalan məbləğin 20%-i həcmində mənfəət (gəlir) vergisi ödəyirlər. Eyni zamanda, ƏDV-nin ödəyicisi olduğu tarixdən həmin şəxslər təqdim etdikləri malların dəyərindən 18% dərəcəsi ilə ƏDV hesablamalı və ƏDV ödəyicisindən ƏDV ödəməklə aldığı mallara görə ödədiyi ƏDV məbləğlərini müəyyən olunmuş şərtlər daxilində əvəzləşdirməlidirlər. Yəni alınmış mallara görə elektron vergi hesab-fakturası təqdim edilməli, alınmış malların dəyərini satıcının bank hesabına, malların dəyərinə hesablanmış ƏDV məbləğini isə satıcının ƏDV depozit hesabına köçürməlidir. Bu şərtlər yerinə yetirilmədiyi halda, ödənilmiş ƏDV-nin məbləği əvəzləşdirilmir və bu problemi yaradanların özləri sonradan şikayətlənməyə başlayırlar.



**Avropa ölkələrində ƏDV dərəcəsi orta hesabla 20%-dir və müqayisədə Azərbaycandakı 18% yüksək deyil**

Müstəqil ekspertlər də bildirirlər ki, marketlərin aldıqları malın böyük əksəriyyəti ƏDV ödəyicilərinə məxsusdur və bu amil malların satışı zamanı ƏDV üzrə əlavə vergi yükünün yaranmasına səbəb olmur. Bəzi marketlər öz fəaliyyətlərini normal bazar prinsiplərinə, marketinqin müasir qaydalarına uyğun qura bilmir, xərclərinin strukturunu yeni dövrün meyarları əsasında tərtib etmirlər.



İqtisadçı-ekspert Qulu İbrahimli bildirir ki, Azərbaycanda vergi yükü yüksək deyil, sadəcə, indi ölkədə vergi inzibatçılığı gücləndirilib, bərabər rəqabət mühiti yaradılır, himayədarlıq işə keçmir. Özünü güclü hesab edənlər isə vergi və gömrük orqanları qarşısında sözlərinin keçməməsini həzm edə bilmirlər.

Bu gün ölkəmizdə ƏDV inzibatçılığı elə qurulub ki, burada ƏDV-dən yayınma çox aşağı səviyyədədir. Ticarət şəbəkələri apardıqları əməliyyatları tam həcmdə qanunvericilikdə nəzərdə tutulmuş qaydada rəsmiləşdirdiyi və Vergi Məcəlləsində sahibkar üçün müəyyən edilən hüquqlardan düzgün istifadə etdikləri halda, əlavə vergi yükü yaranmır. Ümumiyyətlə, ölkəmizdə vergi yükünün guya yüksək olması barədə fikirlərin heç bir əsası yoxdur.

Nüfuzlu beynəlxalq təşkilat olan «Heritage Fondu»nun məlumatlarına görə, Azərbaycanda vergi yükü 2015-ci il üçün 13,3% təşkil edib ki, bu da inkişaf etmiş ölkələrin, habelə qonşu dövlətlərin vergi yükündən aşağıdır (məsələn, bu rəqəm Qazaxıstanda 14%, Gürcüstanda 24,8%, Belarusda 25,4%, İtaliyada 42,6%, Fransada 45% təşkil edir).

### Xronometraj marketlərin vergi potensialını düzgün müəyyənləşdirmək üçündür

Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti Baş İdarəsinin şöbə rəisi Elşən Hüseynov bildirir ki, ticarət, xidmət və iaşə sektoru həm ümumi daxili məhsulda, həm də vergi daxilolmalarında çox əhəmiyyətli paya malikdir. 2015-ci ildə bu sektorun ümumi vergi daxilolmalarında xüsusi çəkisi kifayət qədər yüksəkdir. Xronometraj metodu ilə müşahidəyə gəlincə, bu, istehsal həcmini və malın satış dövriyyəsini müəyyənləşdirmək məqsədilə keçirilən operativ vergi nəzarəti növüdür. Yəni vergi ödəyicilərinin istehsal həcminin və ya satış dövriyyəsinin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi məqsədilə aparılan müşahidədir. Belə müşahidələr mütəmadi qaydada həyata keçirilir, satılmış malların, göstərilmiş xidmətlərin müqabilində çekin vurulması (və ya qəbzin yazılması), müştəriyə verilməsi, çeklərdəki məbləğin ödənilmiş məbləğə uyğun olmasına nəzarət edilir ki, bu da uçotdan yayınma hallarının qarşısını almağa xidmət edir və sahibkarlıq subyektinin normal fəaliyyətinə heç bir maneə yaratmır. Son dövrlərin statistik rəqəmlərinə əsasən demək olar ki, bir çox sahələr, o cümlədən ticarət sektoru vergi nəzarəti tədbirlərinin azalmasından istifadə edərək dövlət büdcəsinə ödənilən vergilərin məbləğini azaltmağa və bu yolla vergidən yayınmağa çalışıb. Məsələn, 2016-cı ilin yanvar-mart aylarında 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə nəzarət tədbirlərinin sayı ümumilikdə 64,2%, o cümlədən səyyar vergi yoxlamaları 40%, kameral vergi yoxlamaları 61,2%, operativ nəzarət tədbirləri 92,5% azaldılıb. Nəzarət tədbirlərinin azalması fonunda bir sıra fəaliyyət sahələri üzrə daxilolmalarda, o cümlədən pərakəndə ticarət sahəsində nəzərə çarpacaq dərəcədə azalma müşahidə olunub. Bu isə həmin fəaliyyət sahələri üzrə vergi ödəyicilərinin vergi öhdəliklərini könüllü surətdə yerinə yetirmək istəmədiklərini göstərir. Bu yaxınlarda iri ticarət şəbəkələrinin birində aparılmış xronometraj yolu ilə müşahidə nəticəsində vergi ödəyicisinin təqdim etdiyi bəyannamələrdə öz dövriyyəsini fevral ayında altı dəfədən də çox azaltdığı, mart ayında isə ümumiyyətlə dövriyyə göstərmədiyi (bəyannamədə bu rəqəm qrafasında sıfır yazılıb) aşkar edilib. Mart ayında Novruz bayramı ilə əlaqədar ticarət müəssisələrinin dövriyyəsinin artdığını nəzərə alsaq, necə deyərlər, «şərhə ehtiyac qalmır!».



**Ticarət və xidmət sektoruna vergi güzəştləri ümumilikdə istehsaldan kənar vergi ödəyiciləri arasında balansın pozulmasına səbəb ola bilər**

### Vergi güzəşti istehsal sahələri üçün xarakterikdir



İqtisadçı Aqil Əsədovun sözlərinə görə, dövlətin kənd təsərrüfatı məhsulları istehsalçılarına, qeyri-neft məhsullarının istehsalı və ixracı ilə məşğul olan bəzi sahibkarlıq subyektlərinə vergi güzəştləri etməsi güzəşt istəyənlərin sayının artmasına səbəb olub: «Güzəşt milli istehsalı stimullaşdırmağa, yeni innovasiyaların ölkəyə gətirilməsinə, elmtutumlu müasir texnologiyaların tətbiqinə xidmət etməlidir. Əksər hallarda güzəştlər sahibkarı tənbəl və ələbaxan öyrətdiyindən, onun müəyyən dövrdən sonra rəqabətdə üstünlük əldə etmək perspektivlərini azaldır. Ticarət və xidmət sektoruna vergi güzəştləri ümumilikdə istehsaldan kənar vergi ödəyiciləri arasında balansın pozulmasına səbəb ola bilər. Ticarət sahəsinə güzəştlərdən isə məhsul istehsalçıları deyil, digər şəxslər qazanacaq, dövlət büdcəsi üçün bunun heç bir faydası olmayacaq. Bunun vergitutma bazasının genişlənməsinə də aidiyyəti yoxdur».

Vergilər Nazirliyinin idarə rəisi Nicat İmanov da hesab edir ki, vergi güzəşti iqtisadiyyatın prioritet sahələri nəzərə alınmaqla, yalnız müəyyən dövr üçün, qanunverici orqan tərəfindən Vergi Məcəlləsinə dəyişiklik edilməklə verilir və bu müddət ərzində həmin fəaliyyət sektorunun normal iqtisadi vəziyyətinin təmin olunmasına xidmət edir. Bu güzəştin nəticəsində formalaşan iqtisadi fəallığın fonunda güzəşt müddətində itirilmiş büdcə daxilolmaları tədricən bərpa edilməlidir.

### ƏDV-nin diferensiallaşdırılması necə aparıla bilər?



Azərbaycanda vergilərlə bağlı bütün dəyişikliklər ali qanunvericilik hakimiyyəti olan Milli Məclisdə müvafiq qanunların qəbul edilməsindən və onların ölkə başçısı tərəfindən imzalanmasından sonra həyata keçirilir. Vergi Məcəlləsinə dəyişikliklər olunması zərurəti yarandıqda, müvafiq qanun layihələri hazırlanaraq, Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir. Vergi Məcəlləsinin qüvvəyə mindiyi 1 yanvar 2001-ci il tarixdən indiyə kimi bütün tədiyyə növləri üzrə vergi dərəcələri yalnız azaldılıb, məsələn, mənfəət vergisinin dərəcəsi 27%-dən 20%-ə, ƏDV-nin dərəcəsi 20%-dən 18%-ə endirilib.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Samirə Musayeva hesab edir ki, Avropa ölkələrində ƏDV dərəcəsi orta hesabla 20%-dir və müqayisədə Azərbaycandakı 18% yüksək dərəcə deyil. Vergilər Nazirliyi pərakəndə ticarətdə ƏDV ilə bağlı diferensiallaşdırmanın nağdsız hesablaşmalara tətbiq olunmasının tərəfdarıdır. Bu, həm ölkədə nağdsız hesablaşmaların stimullaşdırılmasına, həm də ticarət və xidmət obyektlərinin dövriyyəsinin tam şəffaflaşmasına stimul yarada bilər. Ona görə də ortaya çıxan bütün məsələlərə kompleks şəkildə yanaşılmalı, elə qərarlar qəbul edilməlidir ki, bu, həm dövlət büdcəsinin gəlirlərinin azalması ilə nəticələnməsin, həm də sahibkarlara dolayı yollarla problem yaradan maneələri aradan qaldırmaqla onların normal fəaliyyəti təmin olunsun».

**Elbrus CƏFƏRLİ,**
**Fəxriyyə İKRAMQIZI**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Mənzilin bağışlanmasına görə vergi öhdəlikləri

***Fiziki şəxs 4 il ərzində mülkiyyətində olan və həmin müddətdə qeydiyyatda olduğu mənzilini övladına bağışladıqda onun hansı vergi öhdəlikləri yaranır?***

Vergi Məcəlləsinin (VM) 13.2.7.2-ci maddəsinə görə, valideynlər, övladlar və övladlığa götürülmüş şəxslər vergi ödəyicisinin ailə üzvlərinə aid edilmişdir. Təqvim ili ərzində hədiyyə, maddi yardım və miras vergi ödəyicisinin ailə üzvlərindən alındığı halda, onun tam dəyəri gəlir vergisindən azaddır (VM, maddə 102.1.3.2).

VM-in 150.1.9-cu maddəsinə uyğun olaraq, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi (fiziki şəxsin azı 5 (beş) il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, VM-in 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş hallarda təqdim edilmə, həmçinin VM-in 221.5-ci maddəsinə uyğun olaraq sadələşdirilmiş vergi hesablanmış tikinti sahələrinin həmin bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən təqdim edilməsi halları istisna olmaqla) üzrə müqavilələri təsdiq edən notarius ödəmə mənbəyində vergini tutmağa borcludur.

VM-in 218.4.3-cü maddəsinə əsasən, mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini (fiziki şəxsin azı 5 (beş) il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, həmçinin VM-in 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş təqdim edilmə halları istisna olmaqla) həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir. VM-in 218.4.3-cü maddəsində göstərilən şəxslər üçün mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələri, o cümlədən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən satın alınmış yaşayış və qeyri-yaşayış sahələri vergitutma obyektidir (VM, maddə 219.3-1).

Bina Bakı şəhəri, habelə onun qəsəbə və kəndlərində yerləşdikdə, bu maddədə müəyyən olunmuş sadələşdirilmiş vergi məbləğinə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş zonalardan asılı olaraq bu maddədə göstərilmiş əmsallar tətbiq olunur (VM, maddə 220.8.1). Bakı şəhəri, habelə onun qəsəbə və kəndləri üzrə zonaların sərhədləri Nazirlər Kabinetinin 2015-ci il 30 dekabr tarixli 412 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Qeyd olunanlara əsasən, mülkiyyətinizdə olan yaşayış sahəsi ailə üzvünüzə bağışlandığı halda, həmin mənzilin bağışlanması üzrə müqaviləni təsdiq edən notarius tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş vergi tutulmur.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# TADAT metodologiyası ilə tanışlıq

**Ötən həftə Vergilər Nazirliyinin inzibati binasında Vergi İnzibatçılığının Diaqnostik Qiymətləndirmə Aləti (Tax administration Diagnostic Assessment Tool) – TADAT metodologiyası üzrə inzibatçılığın qiymətləndirilməsində istifadə olunan meyarlar haqqında məlumatın əldə olunması məqsədilə 3 günlük təlim-seminar keçirilmişdir. Tədbirdən əvvəl qonaqları vergilər nazirinin müavini, üçüncü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev qəbul etmişdir.**

TADAT Katibliyinin rəhbəri Castin Zeyk, katibliyin texniki yardım məsləhətçiləri Munaver Kvaja və İrina Kuropatkinanın təlimçi kimi iştirak etdikləri seminarın gedişində TADAT metodologiyası, onun əsaslandırılması və aktuallığı, eləcə də qiymətləndirilməsinə hazırlıq məsələləri, vergi inzibatçılığının qiymətləndirməsində istifadə olunan meyarlar barədə iştirakçılara ətraflı məlumat verilmişdir. Vergi orqanlarında inzibatçılıq tədbirlərinin nisbətən güclü və zəif tərəflərinin müəyyən edilməsi məqsədilə vergi inzibatçılığının diaqnostik qiymətləndirmə aləti olan TADAT-ı maliyyələşdirən əsas tərəfdaş təşkilatlar Avropa Komissiyası, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Böyük Britaniya, Almaniya, Yaponiya, Niderland, İsveçrə, Norveç hökumətlərinin müvafiq qurumlarıdır.

***Əməkdaşların peşəkarlıq səviyyəsi yüksək qiymətləndirilir***

TADAT Katibliyinin rəhbəri Castin Zeyk vergi inzibatçılığı sahəsində 24 ildən çox iş xüsusi ilə qeyd edərdim. Müzakirələrdə yaxından iştirak edirdilər, aydın olmayan məsələlərlə bağlı suallar verir, tapşırıqları vaxtında və düzgün yerinə yetirirdilər. Bu da vergi əməkdaşlarının peşəkarlıq səviyyəsinin çox yüksək olduğunu göstərir. Tapşırıqları həll etmələrindən də görünür ki, metodologiyanı çox yaxşı anlayırlar».

Texniki yardım məsləhətçisi İrina Kuropatkina Beynəlxalq Valyuta Fondunun Potensialın İnkişafı İnstitutunda informasiyanın idarə edilməsinə məsul şəxsdir. O, 15 ildən çox BVF-də informasiya və layihə menecmenti və biznesin təhlili sahəsində onlayn təhsil ixtisası üzrə çalışıb. 2015-ci ildə TADAT Katibliyində xüsusi layihələr üzrə işçi kimi işləməyə başlayıb. İşlədiyi layihələr TADAT onlayn təlim kursu və imtahanlarının, TADAT metodologiyası üzrə qarşıq təlim seminarlarının hazırlanması və aparılmasını, TADAT alətinin ictimaiyyətə təqdim edilməsi də daxil olmaqla kompleks məlumatlandırıcı və maarifləndirici kampa-



təcrübəsinə malikdir. Uqanda Vergi İdarəsində rəhbər vəzifələrdə çalışdıqdan sonra Beynəlxalq Valyuta Fondunun Şərqi Afrika üzrə texniki yardım mərkəzində məsləhətçi və BVF-nin büdcə məsələləri üzrə baş iqtisadçısı kimi fəaliyyət göstərib. Afrika və Yaxın Şərq, Qərəib dənizi ölkələri və Avropa missiyalarına rəhbərlik edib. Onun Vergilər Nazirliyində keçirilən 3 günlük seminarla bağlı təəssüratları yüksəkdir: «TADAT seminarının çox maraqlı və interaktiv keçdiyini deyə bilərəm. İştirakçılar çox fəal idilər: bir-birlərinə suallar verir, müzakirələr aparır, praktiki çalışmalarda fəallıq göstərirdilər. Düzü, belə bir aktivliyi gözləmirdim. 3 günlük seminardan sonra vergi əməkdaşları imtahan verdilər və seminar zamanı müşahidə olunan aktivlik imtahanın nəticələrində də özünü göstərdi».

TADAT Katibliyinin texniki yardım məsləhətçisi Munaver Kvaja 2006-cı ildən Dünya Bankında vergi siyasəti və inzibatçılığı üzrə baş mütəxəssis, «KPMG Consulting» şirkətində vergi islahatları məsələləri üzrə baş menecer, Hindistan Maliyyə Nazirliyində vergi siyasəti direktoru, Hindistan vergi idarəsində komissar müavini vəzifələrində çalışıb. «Seminar Azərbaycanın Vergilər Nazirliyinin vergi inzibatçılığında zəif və güclü tərəflərinin müəyyən edilməsi metodologiyasını əhatə edir. İştirakçıların fəallığını isə niyanın idarə edilməsini əhatə edir: «İştirakçıların hazırlıq və bilik səviyyəsi yüksəkdir. Onlar seminarı ciddi qəbul edir və öyrənmək istəyirlər. Öz aralarında aktiv müzakirələr aparırlar. Bu, çox yaxşı göstəricidir və o deməkdir ki, seminarda iştirak edib imtahanda uğur qazananlar müəyyən zaman içində bu təcrübəyə yiyələndikdən sonra TADAT təlimçiləri sırasında yer ala biləcəklər. Əməkdaşların peşəkarlıq səviyyəsinə şübhəm yoxdur. Hamısı çox hazırlıqlıdır. Maraqlanırlar, mükəmməl vergi administrasiyasının necə olmasını öyrənmək istəyirlər. İnanıram ki, TADAT göstəriciləri üzrə Azərbaycanın Vergilər Nazirliyi ən yaxşı nümunə ola bilər. Gələcəkdə də nazirlik ilə əməkdaşlığı davam etdirmək niyyətindəyik».

***22 nəfər TADAT sertifikatına layiq görüldü***

Üç gün davam edən seminardan sonra TADAT metodologiyasına dair əməkdaşların biliklərinin qiymətləndirilməsi məqsədilə imtahan keçirildi və 22 əməkdaş uğurlu nəticə göstərərək müvafiq sertifikata layiq görüldü. Həmin sertifikatlar vergi orqanı əməkdaşlarının vergi sisteminin diaqnostik qiymətləndirilməsi metodologiyasına dair lazımi biliklərə sahib olduqlarını təsdiqləyir və onlara imkan verir ki, təmsil etdikləri sahələr üzrə işlədikləri strukturların xarici dövlətlərdə istifadə olunan yaxşı təcrübələrə uyğunluq səviyyəsini TADAT metodologiyası ilə müstəqil şəkildə ölçsünlər.

*Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Ülvi Yusifov* digər sertifikatlardan fərqlənən «TADAT qiymətləndiricisi» sertifikatına layiq görülüb. Bu sertifikatın sahibləri TADAT Katibliyi tərəfindən xarici dövlətlərin vergi sistemlərində qiymətləndirməni həyata keçirən qrupların tərkibində qiymətləndirici kimi daxil edilə bilərlər: «TADAT müxtəlif ölkələrin vergi inzibatçılığı sisteminin əsas elementlərinin obyektiv qiymətləndirilməsi məqsədilə Beynəlxalq Valyuta Fondu tərəfindən yaradılıb. Fikrimcə, TADAT metodologiyasından istifadə edilməsi Vergilər Nazirliyi tərəfindən beynəlxalq təcrübəyə əsaslanmaqla vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində daim aparılan islahatlara yeni töhfələr verə bilər. Təlimdə Vergilər Nazirliyinin bütün strukturlarını təmsil edən əməkdaşlar iştirak etdiyindən, TADAT alətinin hər bir elementi üzrə təlimçilərlə kifayət qədər ətraflı və maraqlı müzakirələr aparmaq imkanımız oldu».

*Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin Monitorinq və keyfiyyətə nəzarət şöbəsinin dövlət vergi müfəttişi Aynur Mustafayeva:* «Vergilər Nazirliyində keçirilən seminarda vergi sisteminin qiymətləndirilməsi ilə məşğul olan təşkilat və onların qiymətləndirmə metodları, meyarları və prinsipləri haqqında geniş məlumat əldə edə bildik. TADAT üzrə qiymətləndirmə üçün əsas götürülən 9 sahənin göstəriciləri ilə tanış olduq, yaxşı təcrübələr barədə biliklərə yiyələndik və təlimin sonunda imtahan verib sertifikat əldə etdik. Hesab edirəm ki, belə bir seminarın keçirilməsi vergi inzibatçılığı, xüsusilə də vergi ödəyicilərinə xidmət sahəsində yeni fikirlərin formalaşmasında faydalı olacaq».

*Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin Strateji təhlil və islahatlar şöbəsinin rəisi Zaur Cəfərli:* «TADAT vergi orqanlarının xüsusi parametrlər əsasında qiymətləndirilməsinin vacib metodu kimi ən yaxşı beynəlxalq təcrübənin tətbiqinə əsaslanır. TADAT-ın qiymətləndirilməsində vergi ödəyicilərinə təqdim olunan e-xidmətlər, ictimai nəzarət, şəffaflıq əsas göstəricilər kimi nəzərə alınır. Bu parametrlərdən istifadə edərək qazandığımız biliklər hesabına gələcəkdə Vergilər Nazirliyinin fəaliyyətində səmərəliliyin daha da artırılması və beynəlxalq təcrübəyə əsaslanaraq təkmilləşdirilməsinə nail ola bilərik. 3 gün davam edən seminardan sonra TADAT sertifikatı almağımız qabiliyyətlərimizi beynəlxalq səviyyədə tətbiq etməyə fürsət verir. Ən əsası isə vergi sistemimizdə TADAT göstəriciləri əsasında qiymətləndirmə aparıb hansı sahədə təkmilləşməyə, islahatlara ehtiyac olduğunu özümüz müəyyən edə bilərik...»

*Vergi borclarının alınması və ərazi vergi orqanları ilə iş üzrə Baş İdarənin Vergi borclarının alınması işinin təşkili şöbəsinin böyük dövlət vergi müfəttişi Ləman Xasayeva:* «Vergilər Nazirliyində keçirilən belə yüksək səviyyəli beynəlxalq seminarın iştirakçısı olduğuma görə çox məmnunam. Bu tədbir bizə yeni beynəlxalq təcrübə ilə yaxından tanış olmağa, incəlikləri mənimsəməyə şərait yaratdı. Əldə etdiyimiz təcrübə gələcəkdə vergi inzibatçılığının qiymətləndirilməsində xeyli faydalı ola bilər».

**AYTƏN**

# Ezamiyyə xərcləri

Oxucularımızda maraq doğuran suallardan biri də budur: müəssisə tərəfindən çöl şəraitində çalışan və işi gediş-gəliş xarakteri daşıyan işçilərə ödənilən əlavə vəsait işçinin vergi tutulan gəlirlərinə aid edilirmi? Mövzunu Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi siyasəti idarəsinin Vergi qanunvericiliyinin tətbiqi şöbəsinin rəisi Əvəz Quliyev şərh edir.

Vergi Məcəlləsinin 98.1-ci maddəsinə əsasən, fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir - əməkhaqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlirdir. Vergi Məcəlləsinin 102.1.14.1-ci maddəsinə görə, iş vaxtı daimi yolda olan və ya işi gediş-gəliş (səyyar) xarakteri daşıyan, çöl təşkilatlarında işləyən işçilərə gündəlik ezamiyyə xərclərinin əvəzində verilən əlavə vəsaitin, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin qanunvericiliklə nəzərdə tutulan məbləği gəlir vergisindən azaddır.

**Müəssisə tərəfindən bu işçilərə ezamiyyə xərcləri əvəzinə hər gün üçün 10 manat əlavə vəsait ödənilir və həmin vəsait işçinin vergi tutulan gəlirlərinə aid edilmir**

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 18 yanvar 2012-ci il tarixli Q-01 nömrəli Qərarı ilə təsdiq edilmiş və Ədliyyə Nazirliyində 30 yanvar 2012-ci il tarixli 15201201180001 nömrə ilə normativ-hüquqi aktların dövlət reyestrində qeydiyyata alınmış «İşçilərin ezamiyyə Qaydaları»nın 1-ci bəndinə uyğun olaraq, dövlət orqanının, müəssisə, idarə və təşkilatın rəhbərinin sərəncamı (əmri) ilə işçinin daimi iş yerindən müəyyən olunmuş müddətə başqa yerə xidməti tapşırığı yerinə yetirmək üçün getməsi xidməti ezamiyyət sayılır.

Daimi işi yolda keçən və gedişgəliş xarakteri daşıyan, növbə (vaxta) metodu ilə işləyən və çöl şəraitində çalışan (gündəlik iş vaxtı başa çatdıqdan sonra öz daimi yaşayış yerinə qayıtmaq imkanı olmayan) işçilərin xidməti gedişi ezamiyyət sayılmır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli «Ezamiyyə xərclərinin normaları haqqında» Qərarının 4-cü bəndinə görə, ezamiyyə xərclərinin 1 günlük normasına gündəlik, mehmanxana, rabitə, şəhərdaxili nəqliyyat (taksidən istifadə istisna olmaqla) və digər xidmətlər ilə bağlı xərclər daxildir. Bu qərarın 6-cı bəndinə əsasən, daimi iş vaxtı yolda keçən və gediş-gəliş xarakteri daşıyan, növbə (vaxta) metodu ilə işləyən və çöl şəraitində çalışan (gündəlik iş vaxtı başa çatdıqdan sonra öz daimi yaşayış yerinə qayıtmaq imkanı olmayan) müəssisə, idarə və təşkilatların işçilərinə ezamiyyə xərcləri əvəzinə hər gün üçün 10,0 manat əlavə vəsait verilir.

Göründüyü kimi, işi gediş-gəliş xarakteri daşıyan və çöl şəraitində çalışan (gündəlik iş vaxtı başa çatdıqdan sonra öz daimi yaşayış yerinə qayıtmaq imkanı olmayan) işçilərin xidməti gedişi ezamiyyət sayılmır. Müəssisə tərəfindən bu işçilərə ezamiyyə xərcləri əvəzinə hər gün üçün 10 manat əlavə vəsait ödənilir və həmin vəsait işçinin vergi tutulan gəlirlərinə aid edilmir.

**F. İKRAMQIZI**

# Azərbaycan iqtisadiyyatında yenilik

Hazırda Azərbaycanda gündəmdə olan məsələlərdən biri xüsusi iqtisadi zonaların yaradılmasıdır və 2017-ci ildən ölkəmizdə azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın tam fəaliyyət göstərəcəyi planlaşdırılır.

Dünyanın böyük nəqliyyat layihələrinin ölkəmizdən keçməsi bütünlükdə bu regionun strateji dəyərini artırmaqdadır. Azərbaycan Prezidenti İlham Əliyevin Ələtdə yerləşən Bakı Limanında azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması barədə sərəncamı Bakı Limanının dünyanın məşhur liman mərkəzlərindən birinə çevrilməsinin hüquqi əsasını qoyaraq bu işə təkan verir.

İqtisadçı ekspert Pərviz Heydərov mövzunu şərh edərək demişdir ki, ölkəmizin nəqliyyat infrastrukturunun genişləndirilməsi və beynəlxalq standartlar səviyyəsində inkişaf etdirilməsi istiqamətində görülən bütün işlərdə əsas məqsəd ölkəmizi regional tranzit mərkəzinə çevirməkdir: «Son illərdə bütövlükdə ölkəmizin nəqliyyat sektorunda böyük həcmli işlər görülmüş, nəqliyyat qurumlarının və müəssisələrinin potensialı gücləndirilmiş, yük və sərnişin daşımalarının vaxtında və təhlükəsiz həyata keçirilməsi, daşımaların dayanıqlığının təmin edilməsi üçün hər cür şərait yaradılmışdır. Bu addımların atılmasında başlıca məqsəd qeyri-neft sektorunun ən perspektivli sahələrindən biri kimi, nəqliyyat-yol kompleksinin potensialını gücləndirmək, Azərbaycanın tranzit imkanlarını artırmaq və regionda əsas ticarət qovşağına çevirməkdir. Liman ərazisində azad iqtisadi zonanın yaradılması bu işi daha da sürətləndirəcək».

P.Heydərovun sözlərinə görə, bu, asan və qısa müddətə müvafiq nəticələrə nail olunacaq bir iş deyil: «Layihə kompleks tədbirlər planı işləyib hazırlamağı və həyata keçirməyi tələb edir. Təsadüfi deyil ki, Prezidentin sərəncamı ilə İqtisadiyyat Nazirliyi və «Bakı Beynəlxalq Dəniz Ticarət Limanı» Qapalı Səhmdar Cəmiyyətinə birlikdə altı ay müddət ərzində azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı təklifləri müvafiq məlumatlarla birlikdə dövlət başçısına təqdim etmək tapşırığı verilib. Zonanın yaradılması üçün qanunvericilikdən başlamış beynəlxalq təcrübənin tətbiqinə qədər uzun bir yol keçilməlidir. Bundan əlavə, böyük məbləğdə investisiya tələb olunur: təqribi hesablamalara görə, 1 milyard dollar investisiya lazım ola bilər».

Yeri gəlmişkən, Dubay, Honkonq, Sinqapur, Şanxay kimi nəhəng nəqliyyat-logistika mərkəzləri mənsub olduqları ölkələrin iqtisadiyyatında mühüm rol oynayırlar. Bu baxımdan, ümid etmək olar ki, Ələtdə yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisini də əhatə edən xüsusi iqtisadi zona Azərbaycan iqtisadiyyatının istinad yerinə çevriləcək.

**FƏXRİYYƏ**

# Mülkiyyətində olan yaşayış və qeyri-yaşayış təqdim edən şəxslər üçün ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi məbləğinin hesablanması

## Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər üçün sadələşdirilmiş vergi məbləğinin hesablanması

Vergi Məcəlləsinin 218.4.3-cü maddəsinə əsasən, mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir və həmin vergi təqdim edilmə üzrə müqavilələri təsdiq edən notariuslar tərəfindən ödəmə mənbəyində tutulur.

Vergi Məcəlləsinin 218.1.3-cü maddəsində isə göstərilir ki, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1384-IVQD nömrəli Qanunu ilə Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etməklə bu verginin ödəyicisi ola bilərlər.

Qeyd olunan məsələ ilə bağlı indiyədək vergi ödəyiciləri, eləcə də vətəndaşlar tərəfindən xidmət mərkəzlərinə, «195-1» Çağrı Mərkəzinə, internet səhifəsinə edilən müraciətlərdən görünür ki, vətəndaşlar arasında ödəməli olduqları sadələşdirilmiş vergi məbləğinin müəyyənləşdirilməsi zamanı əsas sual doğuran hallar vergi dərəcələrinin, rayonlar üzrə əmsalların, Bakı şəhəri üzrə zonaların müəyyən edilməsi ilə bağlıdır. Hər iki vergi növünün hesablanmasında əmlakın sahəsi, onun yaşayış və ya qeyri-yaşayış sahəsi olması, Bakı şəhərində və ya digər şəhər və rayonlarda yerləşməsi (Bakı şəhəri üzrə Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiqlənmiş zonalar üzrə müəyyən olunmuş əmsallar tətbiq olunur) göstəricilərindən istifadə olunur.



Bu baxımdan, vergi ödəyicilərinin işini asanlaşdırmaq məqsədilə hazırlanmış kalkulyator müvafiq məlumatları daxil etməklə ödənilməli olan vergi məbləği barədə məlumat əldə etməyə imkanı verir. Artıq hər bir şəxs əmlakın sahəsi və yerləşdiyi ərazi barədə məlumatları kalkulyatorun müvafiq xanalarına daxil olmaqla vergi məbləğini çox asanlıqla hesablaya bilər. Bundan əlavə, kalkulyatora Bakı şəhərinin zonalar üzrə xəritəsi də əlavə edilmişdir ki, bununla hər bir istifadəçi öz əmlakının yerləşdiyi ünvanın hansı zonaya aid olduğunu müəyyənləşdirir.

Sizin üçün faydalı olan kalkulyatoru Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin (taxes.gov.az) «Xəbərlər», «Aktual» bölmələrindən əldə edə bilərsiniz: http://www.taxes.gov.az/modul.php?name=pages&page=193

**Şahin MUSABƏYOV,**
***Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin təhlil şöbəsinin əməkdaşı***

# Şahmat üzrə ənənəvi xatirə turniri

Aprel ayının 23-də vergi xidməti əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş 11-ci ənənəvi şahmat turnirinə start verilib. Turnir Gənclər və İdman Nazirliyinin və Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən təşkil olunub.



Vergilər Nazirliyi Aparatının rəhbəri Əli Həsənov turnir iştirakçılarını salamlayaraq Azərbaycanda şahmatın zəngin inkişaf tarixi barədə danışıb. O, uzun illərdən bəri ölkəmizdə istedadlı şahmatçıların yetişdiyini bildirərək qeyd edib ki, bu idman növünün sürətlə inkişaf etməsi, idmançılarımızın beynəlxalq səviyyədə uğurlarının artması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ötən əsrin 70-ci illərində ölkəmizə rəhbərliyi dövründə daha geniş vüsət alıb.

Prezident İlham Əliyevin hazırda şahmatın inkişafına böyük diqqət yetirdiyini nəzərə çatdıran Ə.Həsənov bu məqsədlə respublikamızda şahmatın inkişaf etdirilməsi ilə bağlı ölkə başçısı tərəfindən xüsusi sərəncamlar imzalandığını vurğulayıb. Qeyd olunub ki, şahmatçılarımızın beynəlxalq yarışlarda qazandıqları nailiyyətlərin sayı gündən-günə artır, dünya və Avropa çempionatlarında, beynəlxalq turnirlərdə qazanılan qələbələr respublikamızın gəncləri arasında bu idman növünə marağı daha da artırır. Hazırda respublikada fəaliyyət göstərən 65 uşaq-gənclər şahmat məktəbində və klublarda 40 mindən çox uşaq və yeniyetmə məşğul olur.

Bildirilib ki, iki dəfə ardıcıl olaraq şahmat üzrə Avropa çempionu olmuş Azərbaycan artıq nüfuzlu beynəlxalq yarışlara da ev sahibliyi etməyə başlayıb. Artıq 2 ildir ki, ardıcıl olaraq Şəmkir şəhərində keçirilən, Azərbaycanın tanınmış şahmatçısı Vüqar Həşimovun xatirəsinə həsr olunmuş beynəlxalq şahmat turnirində FİDE reytinqində yüksək pillələrdə olan tanınmış qrossmeysterlər iştirak edirlər. 2016-cı ilin sentyabr ayında isə Beynəlxalq Şahmat Olimpiadasının ilk dəfə olaraq Bakıda keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, Vergilər Nazirliyinin müxtəlif struktur bölmələrinin əməkdaşlarının iştirak etdiyi, Olimpiya sistemi üzrə keçirilən turnir may ayının 7-də başa çatacaqdır.

# Torpaq vergisi ilə bağlı yeniliklər tətbiq olunacaq

Vergi qanunvericiliyinə əsasən, hər il may ayının 15-dən gec olmayaraq müəssisə və təşkilatlar illik torpaq vergisini torpaq sahələrinin ölçüsü və torpaq vergisinin dərəcələri üzrə hesablamalı, hesabatları vergi orqanına təqdim etməlidirlər. Torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq, torpaq sahəsinə görə hər il sabit tədiyyə şəklində hesablanır və bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq ödənilir. Müəssisələrin torpaq vergisi dövlət büdcəsinə, fiziki şəxslərin torpaq vergisi isə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

Torpaq vergisi torpaq barəsində mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər əsasında müəyyənləşdirilir. Tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafizəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tutulur. Vergi Məcəlləsinin 208.3-cü maddəsinə uyğun olaraq, müvafiq orqanlar tərəfindən fiziki şəxslərə hər il iyulun 1-dək torpaq vergisi hesablanır və avqustun 1-dən gec olmayaraq tədiyyə bildirişləri çatdırılır. Ayrılıqda bir neçə hüquqi və ya fiziki şəxsin mülkiyyətində və ya istifadəsində olan tikililərin altında qalan və ya onlara xidmət üçün ayrılmış torpaq sahələrinə görə vergi onlara məxsus tikili sahələrinə mütənasib qaydada hesablanır.

Vergi Məcəlləsində torpaq vergisindən azadolmalar və güzəştlər də nəzərdə tutulmuşdur. Aşağıda qeyd olunan torpaqlar vergiyə cəlb edilmir:

- yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları;
- dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının və onun qurumlarının, habelə Azərbaycan Respublikası Dövlət Neft Fondunun mülkiyyətində və ya istifadəsində olan torpaqlar;
- istehsal fəaliyyətinə cəlb edilməmiş dövlət, meşə və su fondu torpaqları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus sektorunun altında yerləşən torpaqlar;
- dövlət sərhəd zolaqları və müdafiə təyinatlı torpaqlar.

Vergi Məcəlləsinin 102.2-ci maddəsində göstərilən şəxslərin mülkiyyətində olan torpaqlara görə torpaq vergisinin məbləği isə 10 manat həcmində azaldılır.

Azərbaycan Respublikası Prezidentinin qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər qeydiyyata alındıqları hesabat ilindən başlayaraq sənaye, yaxud texnologiyalar parklarında istifadə etdikləri torpaqlara görə 7 il müddətinə torpaq vergisini ödəməkdən azaddırlar. Bundan başqa, sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru bu parkların ərazisində istifadə etdiyi torpaqlara görə torpaq vergisi ödəməkdən azaddır.

Vergi Məcəlləsinin 206.1-ci maddəsinə görə, torpaq vergisinin dərəcəsi kənd təsərrüfatı torpaqları üzrə 1 şərti bal üçün 0,06 manat müəyyən edilmişdir. Kənd təsərrüfatı torpaqları istisna olmaqla, torpaq sahəsinin hər 100 kvadratmetrinə görə aşağıdakı cədvəldə göstərilən dərəcələr tətbiq olunur:

Hazırda Milli Məclisdə qəbul edilməsi gözlənilən Vergilər Məcəlləsinə əlavə və dəyişikliklərlə bağlı qanun layihəsində kənd təsərrüfatı təyinatlı və bu məqsədlərlə istifadə üçün yararlı olan, lakin istifadəsiz qalmış torpaq sahələri üzrə vergi yükünün artırılması nəzərdə tutulur. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, bu dəyişiklik mülkiyyətçilər tərəfindən belə torpaqlardan geniş istifadə edilməsinə və bununla da qeyri-neft sektorunun əsas istiqamətlərindən biri olan kənd təsərrüfatı istehsalının genişləndirilməsinə zəmin yaradacaq. Dəyişikliklərin digər məqsədi isə kənd təsərrüfatının inkişafı, bu sahədə investisiya qoyuluşları üçün əlverişli imkanların yaradılması, biznes mühitinin daha da yaxşılaşdırılması, qeyri-neft ixrac potensialının artırılması, qeyri-neft sektorunun inkişafı baxımından kənd təsərrüfatı məhsullarının istehsalının əsaslı şəkildə genişləndirilməsi, idxalın əvəzlənməsi, yerli sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi və bu sahədə məşğulluğun artırılmasıdır.

Məcəlləyə edilməsi nəzərdə tutulan daha bir dəyişiklik kənd təsərrüfatı təyinatlı torpaqların hər hansı üzrlü səbəb olmadan təyinatı üzrə istifadə edilmədikdə ona tətbiq olunan vergi dərəcəsi ilə bağlıdır. Dəyişikliyə əsasən, həmin torpaq üzrlü səbəb olmadan təyinatı üzrə istifadə olunmursa, vergi dərəcəsi artırılaraq hər 100 kvadratmetr üçün 10 manat müəyyən ediləcək. Təyinatı üzrə istifadə edildikdə torpaq vergisi yerli büdcələrə, təyinatı üzrə istifadə olunmadıqda toplanan vergi isə dövlət büdcəsinə ödəniləcək.

**Rəşad SADIQOV**

| Yaşayış məntəqələri | Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar (manatla) | | Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar(manatla) | |
|---|---|---|---|---|
| | *10000 $m^2$-dək olduqda* | *10000 $m^2$-dən yuxarı olan hissə üçün* | *10000 $m^2$-dək olduqda* | *10000 $m^2$-dən yuxarı olan hissə üçün* |
| Bakı şəhəri, habelə onun qəsəbə və kəndləri | 10 | 20 | 0,6 | 1,2 |
| Gəncə, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonunun qəsəbə və kəndləri | 8 | 16 | 0,5 | 1,0 |
| Digər şəhərlər və rayon mərkəzləri | 4 | 8 | 0,3 | 0,6 |
| Rayon tabeliyində olan şəhərlər, qəsəbələr və kəndlər | 2 | 4 | 0,1 | 0,2 |

# Treninq keçirilib

## *Tədbir «Uçot məlumat bazalarının aktuallığının təmin edilməsi Qaydaları»na həsr olunub*

Vergilər nazirinin əmri ilə vergi orqanlarının struktur bölmələrində yaradılmış uçot məlumat bazalarının aktuallığının təmini bölmələrinin fəaliyyətinin təşkili, əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi Vergilər Nazirliyinin diqqət mərkəzindədir. Vergi nəzarətinin səmərəliliyini artırmaq və vergi ödəyicilərinin dövlət qeydiyyatı və uçotu ilə bağlı məlumatların aktuallığının təmin olunması sahəsində vergi orqanlarının vəzifəli şəxsləri tərəfindən müvafiq tədbirlərin həyata keçirilməsi üzrə məsələlərin müəyyən edilməsi, habelə uçot məlumat bazalarının aktuallığının təmini bölmələrinin fəaliyyətinin təşkilini təmin etmək məqsədilə «Uçot məlumat bazalarının aktuallığının təmin edilməsi Qaydaları» təsdiq olunmuşdur. Qaydaların tətbiqi ilə bağlı aprel ayının 22-də vergi orqanlarının aidiyyəti əməkdaşları üçün treninq keçirilmişdir.

Treninqdə qaydalarda nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi üçün istifadə olunan mənbələr və uçot məlumat bazalarının aktuallığının təmini üzrə müəyyən edilmiş 11 risk meyarları mövzusunda geniş müzakirələr aparılmışdır.

# Cənub bölgəsinin vergi ödəyiciləri ilə görüş

Ötən həftə 6 saylı Ərazi Vergilər İdarəsinin vergi nəzarəti ilə əhatə olunan Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında istehsal, idxal və topdansatış fəaliyyəti ilə məşğul olan 50-dən çox vergi ödəyicisinin iştirakı ilə görüş olub. Tədbirdə çıxış edən idarənin rəisi Sarxan Məmmədov ölkədə aparılan iqtisadi islahatların, vergi sahəsində görülən işlərin, zəruri təkmilləşdirmələrin və dəyişikliklərin hər bir vətəndaşa, eləcə də vergi ödəyicilərinə düzgün çatdırılması üçün belə görüşlərin vacibliyini qeyd edib. Vergi uçotunda şəffaflığın təmin olunmasının ən mühüm məsələlərdən olduğunu deyən idarə rəisi bildirib ki, bunun üçün vergi ödəyiciləri dövriyyələrini düzgün göstərməli, sənədləşdirmə işlərini qaydaya salmalı, bu sahədə hansısa problemlərlə üzləşəcəkləri təqdirdə, Vergilər Nazirliyinə, ərazilərdəki vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya Çağrı Mərkəzinə müraciət etməlidirlər.



İdarənin rəis müavini, Bəyannamələrin kameral yoxlanılması şöbəsinin rəisi Vəlaəddin Yunsurov Vergi Məcəlləsində edilən əlavə və dəyişikliklər, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması və ixracın stimullaşdırılması, ixrac fəaliyyətinin təşviq edilməsi ilə bağlı konkret tədbirlər və s. barədə iştirakçılara məlumat verib. Sahibkarlara Vergilər Nazirliyinin təqdim etdiyi elektron xidmətlərin mahiyyəti izah olunub, istehsal, topdan və pərakəndə ticarət obyektlərində sənədsiz malların satışının yolverilməzliyi və nəzarət-kassa aparatlarından, POS-terminallardan düzgün istifadə olunmasının zəruriliyi qeyd edilib.

Tədbirin sonunda vergi ödəyicilərinin çoxsaylı sualları cavablandırılıb.

# Daim yaradıcılıq axtarışında...



Dövlət vergi orqanları əməkdaşlarının peşə hazırlığının artırılmasında və ixtisas səviyyəsinin yüksəldilməsində Vergilər Nazirliyinin Tədris Mərkəzinin müəllimlərinin də böyük rolu var. Neçə illərdir ki, pedoqoji fəaliyyətini Tədris Mərkəzində davam etdirən İqtisadiyyat və menecment kafedrasının baş müəllimi Mülkədar Namazovun da taleyinə bu şərəfli peşəni yaşamaq düşüb. Otuz beş illik zəngin təcrübəsini, bilik və bacarığını 12 ildir ki, yeni işə qəbul olmuş stajçı kadrlardan, ixtisasartırma kurslarında və qısamüddətli treninqlərdə iştirak edən təcrübəli vergi əməkdaşlarından əsirgəmir.

Mülkədar müəllim uzun illər iqtisadiyyatın müxtəlif sahələrində məsul vəzifələrdə çalışıb. Müxtəlif dövlət strukturlarında böyük iqtisadçı, baş mühasib, dövlət gəlirləri üzrə böyük müfəttiş, baş nəzarətçi-müfəttiş, baş müfəttiş və Nəzarət Palatası sədrinin müavini kimi vəzifələrdə çalışması onun peşəkar mütəxəssis kimi formalaşmasında mühüm rol oynayıb. 1994-cü ildən 2005-ci ilədək Vergilər Nazirliyinin müxtəlif strukturlarında baş vergi müfəttişi kimi çalışan M.Namazovun fəaliyyəti rəhbərlik tərəfindən yüksək qiymətləndirilib. Vergi xidməti müşaviri xüsusi rütbəsinə layiq görülmüş Mülkədar müəllim 2005-ci ilin aprel ayından Vergilər Nazirliyinin Tədris Mərkəzində çalışır.

Mülkədar müəllimin uğur düsturu öz ixtisasına sadiqliyindədir. Öz dediyinə görə, yüzlərlə vergi orqanı əməkdaşının peşə hazırlığının artırılmasındakı fəaliyyətindən mənəvi zövq alır. Vergi ödəyiciləri ilə münasibətlərdə işgüzar ünsiyyət etikası, nitq mədəniyyəti, vergi mədəniyyəti, vergi xidməti əməkdaşlarının xidmətkeçmə qaydaları və digər mövzularda tədris olunan dərslərdə müasir metodların üstünlükləri və əhəmiyyəti öyrədilir. Mülkədar müəllim qeyd edir ki, auditoriyanın tərkibini və təhsil formasını nəzərə almaq tədrisin keyfiyyətli olması üçün əsas şərtlərdəndir. Dərs deyən müəllimin tədris etdiyi fənni dinləyiciyə necə və hansı formada çatdırması mövzunun mənimsənilməsində böyük rol oynayır: «Kollektivin hər bir üzvü öz bilik və bacarığını, müasir təlim metodlarını praktiki şəkildə auditoriyaya çatdırmaq üçün daim yeni formalar axtarır. Dinləyicilərin nəzəri biliklərinin praktik istiqamətə yönəldilməsi mexanizmi təkmilləşdirilir. Biz vergi sistemində aparılan dəyişiklikləri diqqətlə izləyir, qanunvericiliyə dəyişikliklər, beynəlxalq vergi sistemindəki yeniliklər, təlim-tədris prosesində müasir metodları mənimsəmək üçün daim öz üzərimizdə çalışırıq».

Tədris Mərkəzi Mülkədar müəllim üçün doğma ocaq, həyatının ən şirin xatirələrini yaşadığı ünvandır. Mərkəzdə ona ikiotaqlı mənzil ayrılıb və ailəsi ilə birlikdə burada yaşayır: «Bura öz evimizdən qətiyyən fərqlənmir, darıxmağa macal yoxdur»...

Mülkədar müəllim həm də söz-sənət adamıdır, peşəkar iqtisadçı pedaqoq olmaqla yanaşı, Mülkədar Nadir imzası ilə şeirlər, publisistik yazılar müəllifidir. 1952-ci il aprel ayının 13-də Gürcüstan Respublikasının Borçalı bölgəsində dünyaya gələn şairin uzun bir yaradıcılıq yolu vardır. Gəncliyindən dərdini, sevincini, hisslərini, duyğularını vərəqlərə köçürərək çap etdirib. Sanballı yazı və məqalələrin, kitabların müəllifidir. «Mənə kürsü gətirin», «Sevgidən dolu dərdim», «Koroğlu baharından beş yarpaq», «Dünya ilə bir canıq», «Qaranlıqda işıqlar», «Alimlik zirvəsi», «Sözün mülkədarı», «İnsan, dayan!..» və s. kitablarının əsas qayəsini torpağa bağlılıq, təbiətə vurğunluq, vətənpərvərlik, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması, haqsızlığa qarşı barışmaz mövqe, haqq-ədalətə inam təşkil edir. Əsərləri Türkiyənin, İranın, Gürcüstanın 30-dan çox adda qəzet və jurnallarında işıq üzü görüb.

**ELBRUS**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2016-cı il martın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı **1 milyon 494,7 min** nəfər olub. Onlardan **883,2 min** nəfəri iqtisadiyyatın dövlət sektorunda, **611,5 min** nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.
- Sumqayıt Kimya Sənaye Parkının rezidentlərinin sayı **6-ya** çatıb.
- Yanvar-mart aylarında Azərbaycanla İran arasında ticarət dövriyyəsinin həcmi **53%** artıb.
- Bu ilin ilk rübündə ölkə ərazisinə **500 min 634,73** ABŞ dolları məbləğində maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar və onların ehtiyat hissələri idxal edilib.

# Biznes və mobil texnologiyalar

Müasir biznesi, ümumiyyətlə, insan fəaliyyətini mobil texnologiyalardan kənarda təsəvvür etmək çətindir. Mobil texnologiyalar istənilən vaxtda və istənilən yerdən biznes prosesinə operativ nəzarət etməyə imkan verir.

«VIP Escort Motors»un baş direktoru Rəşad Quliyev mövzu ilə bağlı bildirdi ki, bu gün mobil saytlar məşhur brend və ya iri ticarətlə məşğul olan şirkətlərin biznesinin ayrılmaz tərkib hissəsidir: «Reklam xarakterli, satışın keyfiyyətini qaldırmaq naminə yaradılan mobil saytlar şirkətlərə öz müştəri bazasına məhsulları haqqında informasiyanı zaman və məkan məhdudiyyəti olmadan operativ çatdırmaq imkanı yaradır. Smartfonlar alış-veriş prosesi haqqında ənənəvi fikir sərhədlərini artıq keçib. Mobil internet və smartfonlar şirkətlərə daha səmərəli fəaliyyət göstərməyə, operativ qərarların verilməsinə və ümumilikdə biznes prosesinə fasiləsiz nəzarət etmək üçün optimal imkan yaradır».



Texnologiyaların bank sektoruna təsiri də çox önəmlidir. «AccessBank»ın İctimaiyyətlə əlaqələr və korporativ sosial məsuliyyət üzrə aparıcı mütəxəssisi Könül Babayevanın sözlərinə görə, mobil texnologiyaların inkişafı bank sektorunun işinə də müsbət təsir etməkdədir: «Bu inkişaf imkan verir ki, banklar öz müştərilərinə daha keyfiyyətli, operativ və fasiləsiz xidmət göstərsin. Mobil bankinq xidmətindən istifadə etməklə insanlar birbaşa smartfonla banka gəlmədən onlayn kredit ödəyir, kommunal ödənişlər və pul küçürmələrini həyata keçirir. Hesab üzrə keçirilən hər bir əməliyyat isə «SMS xəbərdarlıq» vasitəsilə bank tərəfindən məlumatlandırılır. İndiki dövrdə bu, artıq çoxları üçün yenilik sayılmır».

Bir çox banklar isə mobil texnologiyanın imkan verdiyi yeniliklər vasitəsilə innovativ xidmət və məhsullarını təqdim edərək öz müştəri bazalarını artırırlar. Mobil texnologiyaların inkişaf tempinin sürətlənməsi və bütün bank xidmətlərinin internetə qoşulması banklarla müştərilər arasındakı münasibətlərə radikal dəyişikliklərlə müşahidə olunacaq. Bu zaman bankların uğuru onların yeni dəyişikliklərə hansı formada hazır olmasından asılı olacaq. Dünyaca məşhur audit şirkətlərindən olan «Deloitte» öz hesabatında mobil texnologiyanın biznesdə təkcə əməliyyat hissəsinə deyil, həmçinin marketinq, kommersiya, informasiya kanalları və idarəetmə proseslərinin təşkil olunmasında böyük rolu olduğunu həmişə qeyd edir.

«Ofisait Print» şirkətinin icraçı direktoru Elgün Namazovun sözlərinə görə, mobil texnologiyalar hazırda reklam istehlakçılarının həyatının ayrılmaz hissəsinə çevrilməkdədir. Onlar böyük reklam bazarının kiçik hissəsini təşkil etməsinə baxmayaraq, kiçik və orta şirkətlər arasında mobil reklamlar getdikcə daha çox populyarlaşır. Reklam şirkətləri mobil texnologiyalar sayəsində reklam sektorunda yeni layihələr yaratmaqla işlərini daha effektiv etməyə çalışır. Məsələn, GPS vasitəsilə hər hansı restoranın ən yaxın istehlakçılarını aşkar edib reklam mesajlarını göndərmək mümkündür.

İstehsalata gəldikdə, «Metak» şirkətinin maliyyə direktoru Fuad Zülfüqarov bildirdi ki, on beş il əvvəl istehsalla məşğul olan şirkətin əməkdaşı avadanlığın yoxlanması və məhsulun keyfiyyətinə nəzarət zamanı qələm və kağızdan istifadə etməli idi. Bu isə kifayət qədər zaman almaqla yanaşı, yüksək dəqiqlik tələb edirdi. İndi isə işçi həmin işi iPad və ya smartfon vasitəsilə istehsalatda təhlükəsizlik qaydalarına əməl olunmaqla daha dəqiq və operativ edə bilir. Hazırda müxtəlif sektordan olan şirkətlər öz məhsulları ilə rəqibləri üzərində üstünlük əldə etmək üçün istehsalatda mobil texnologiyanı tətbiq etməklə biznes proseslərinin keyfiyyətini və təhlükəsizliyini artırmağa çalışırlar.

Mobil texnologiyaların tətbiqi istehsalatda təkcə təhlükəsizliyin təmin olunması deyil, həmçinin texnoloji prosesləri sadələşdirməklə vasaitlərə də qənaət etməyə imkan verir. Ölkəmiz də bu proseslərdə öndədir. Sevindirici haldır ki, Azərbaycandan daxil olan layihə ABŞ-da keçirilən «2016 GİST-İ» beynəlxalq müsabiqəsinin yarımfinalına çıxıb. 135 ölkə arasında keçirilən müsabiqədə ümumilikdə 1075 ərizə qəbul edilib. Azərbaycandan təqdim olunan «HealthBox» adlı innovativ layihə beynəlxalq ekspertlər tərəfindən müsbət qiymətləndirilib. Azərbaycanlı həkim Leyla Tağızadənin müəllifi olduğu bu mobil proqram xəstələrin tibbi xidmətlərə əlçatanlığını yüksəltmək üçün nəzərdə tutulub. Proqram xəstələrə öz sağlamlıqları ilə əlaqədar məlumatları bilavasitə tibbi müəssisə və apteklərə göndərməyə imkan verən mobil tətbiqdir. Layihənin finala keçməsini isə aprel ayının 1-dən may ayının 1-nə kimi keçiriləcək ictimai səsvermə həll edəcək. Onu da qeyd etmək lazımdır ki, hər il sammitin açılışını ABŞ Prezidenti Barak Obama şəxsən özü elan edir. Bu il finalçılar ABŞ dövlət başçısı ilə görüşmək, layihələrinin inkişafı üçün investisiya cəlb etmək, qlobal elm, texnologiya sahəsində faydalı əlaqələr qurmaq, investorlarla qarşılaşmaq imkanı əldə edəcəklər.

Qeyd edək ki, Elm və Texnologiya üzrə Qlobal Sammit - «2016 GİST-İ» ABŞ Dövlət Departamenti və AAAS (Amerika Elmə Dəstək Assosiasiyası) tərəfindən hər il keçirilən müsabiqədir. Qlobal sammit bu ilin 20-24 iyun tarixlərində ABŞ-ın Kaliforniya ştatında, Silikon vadisində keçiriləcək.

**F. İKRAMQIZI**

## vergi təqvimi

| MAY | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23/30 | 24/31 | 25 | 26 | 27 | 28 | 29 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

16 may - «(5)» və «6».

20 may - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.

**(«1-2») - Gəlir vergisi (idman mərc oyunları üzrə):** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Müəssisələr torpaq sahəsinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən torpaq vergisini illik olaraq hesablayır və may ayının 15-dən gec olmayaraq hesablamaları vergi orqanına təqdim edirlər.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.



beynəlxalq panoram

# Hibrid avtomobillərin gətirilməsinə vergi güzəşti tətbiq edilib



Gürcüstan parlamentinin Vergi Məcəlləsinə etdiyi yeni dəyişikliyə əsasən, hibrid mühərrikli avtomobillərin ölkəyə gətirilməsi üçün tətbiq olunan aksizlər yarıbayarı azaldılıb. Hökumətin mövqeyinə görə, hibrid avtomobillər üçün vergi güzəşti tədricən onların adi avtomobilləri üstələyəcəyinə gətirib çıxaracaq ki, bu da neft məhsullarına tələbatı ciddi şəkildə azaldacaq. Beləliklə, bu addımın atılması ikiqat fayda verəcək: həm ölkənin ekologiyasına müsbət təsir göstərəcək, həm də yanacaq idxalı üçün çəkilən xərcləri azaldacaq.

Qanuna yeni düzəliş parlamentin «Azad demokratlar» fraksiyasının təşəbbüsü ilə hazırlanıb. Layihənin ilk variantında hibrid maşınların aksizlərdən və vergilərdən tam azad edilməsi təklif olunmuşdu. Lakin ölkə büdcəsinin itkiləri nəzərə alınaraq, parlament yalnız aksizlərin azaldılması üzərində dayanıb.

Müşahidəçilər qeyd edirlər ki, Gürcüstanda hibrid maşınlara maraq getdikcə artır. 2013-cü ilin iyulundan dekabrınadək bu ölkənin ərazisinə 166, 2014-cü ildə 667, 2015-ci ilin iyuluna qədər isə 604 hibrit avtomobil gətirilmişdi. Mütəxəssislər bu sahədə tətbiq olunan aksizin azaldılmasının bazar tələbatına ciddi təsir göstərəcəyini qeyd edirlər.

# Amerikalıların gəlir vergisi hara gedir?

ABŞ əhalisinin böyük əksəriyyətini vətəndaşların gəlir vergisindən büdcəyə daxil olan vəsaitləri hökumətin necə xərcləməsi, hansı istiqamətlərə yönəltdiyi maraqlandırır. Peşəkar araşdırma mərkəzi olan «National Priorities Project» təşkilatının ekspertləri 2015-ci il ərzində ABŞ-da əhalidən toplanmış gəlir vergisinin hansı istiqamətlər üzrə xərcləndiyi barədə maraqlı hesabat hazırlamışlar. Hesabatda qeyd olunur ki, 2015-ci ildə ölkədə hər bir ailə federal büdcəyə orta hesabla 13.000 dollar pul ödəmişdir. Ödənilən pullar aşağıdakı istiqamətlər üzrə xərclənmişdir:

- 3.728,92 dollar (və ya ödənilmiş verginin 28,7 faizi) - səhiyyə proqramına;
- 3.299,13 dollar (25,4 faiz) - Pentaqonun və ordunun maliyyələşdirilməsinə;
- 1.776,06 dollar (13,7 faiz) - dövlət borcunun faizlərinin ödənilməsinə;
- 1.040,93 (8 faiz) - məşğulluq və işsizliklə mübarizə proqramına;
- 771,26 dollar (5 faiz) - veteranlara verilən imtiyazlara;
- 598,70 dollar (4,6 faiz) - ərzaq və kənd təsərrüfatı proqramlarına;
- 461,59 dollar (3,6 faiz) - təhsil proqramlarına;
- 377,5 dollar (2,9 faiz) - hökumətin maliyyələşdirilməsinə;
- 250,03 dollar (1,9 faiz) - mənzil və sosial yönümlü proqramlara;
- 270,68 dollar (1,6 faiz) - energetika proqramlarına və ətraf mühitin mühafizəsi üzrə layihələrə;
- 194,29 dollar (1,5 faiz) - beynəlxalq proqramlara;
- 150,68 dollar (1,2 faiz) - ictimai nəqliyyatın maliyyələşdirilməsinə;
- 143,2 dollar (1,1 faiz) - elmin inkişafına.

# Kanadada vergi yükü aşağıdır

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) nəşr etdirdiyi yeni araşdırmanın nəticələrinə görə, dünyanın digər ölkələri ilə müqayisədə Kanadada vergi yükü nəzərəçarpacaq dərəcədə aşağıdır. Hesabatda ödənilən bütün vergilər ilə ailələrin ümumi gəliri arasındakı fərq nəzərdə keçirilib. 34 ölkədə aparılmış araşdırmalar müxtəlif kateqoriyaları əhatə edir, məsələn, sənəddə tənha yaşayan insanın nə qədər vergi ödədiyi və ya ikiuşaqlı ailənin üzərinə düşən vergi yükü təhlilə cəlb olunub.

Məlum olmuşdur ki, bir çox ölkələrlə müqayisədə Kanadada vergi yükü daha yüngüldür. Məsələn, bu ölkədə uşaqlı ailələrin vergisi ümumi gəlirin 18,8 faizini təşkil edir. Eyni göstərici Fransada 40,5 faiz, Belçikada 40,4 faiz, İtaliyada 39,9 faiz, Finlandiyada 39,3 faiz, Avstriyada 39 faizdir. Kanadada ən yüksək vergini tək yaşayan vətəndaşlar ödəyirlər: onlar qazanclarının 31,6 faizini dövlət büdcəsinə verirlər. Bu rəqəm Avropa ölkələrində də yüksəkdir. Gəlir vergisinin dərəcəsinə görə Kanada dünyada 13-cü yeri tutur. Siyahının başında Danimarka gəlir. Bu ölkədə tək yaşayanlar öz gəlirlərinin 35,8 faizini, uşaqlı ailələr isə 31,9 faizini dövlət büdcəsinə ödəyirlər.

# Nigeriya vergi siyasətini sərtləşdirir

Ölkənin Maliyyə Nazirliyinin məlumatına görə, federal hökumətin apardığı son yoxlama zamanı aşkar edilib ki, 363 min şirkət təsis olunduğu vaxtdan bugünədək heç bir vergi ödəməyib. Onların büdcədən yayındırdıqları vergilərin məbləği milyardlarla ölçülür.

Hazırda Nigeriyada hökumətin prioritet vəzifələrindən biri büdcə kəsirinin doldurulması üçün şirkətləri vergiyə cəlb etməkdir. Vergidən yayındırılan məbləğlər büdcəyə ödənilərsə, neftin qiymətinin ucuzlaşması xammaldan asılı vəziyyətdə olan ölkənin iqtisadiyyatında ciddi şəkildə hiss olunmaz. Nigeriya hökuməti vergidən yayınanlara qarşı ciddi cəza tədbirlərinin görüləcəyini bəyan edib.

# Vergitutmanın «İsveç modeli»nə qayıtmaq təklif edilib



İsveç hökuməti bəyan etmişdir ki, gələn il büdcəyə vergi toplanmasında bəzi istiqamətlərin zəifləndilməsi üçün imkanlar axtarılacaq. Hökumət tərəfindən yeni fiskal strategiya açıqlanaraq qeyd edilmişdir ki, ümumi rifah dövlətinin «İsveç modeli»ni bərpa etmək zərurəti yaranıb. Keçmiş hakimiyyətin 2014-cü ilə qədər vergiləri azaltması ölkədə qeyri-bərabərliyi artırıb, sosial tarazlığın pozulmasına səbəb olub.

Unikallığı ilə seçilən «İsveç modeli» vaxtilə ölkəni bütün dünyada nümunəyə çevirmişdi. Bu model sosial təminatın universal və yüksək keyfiyyətli xidmətlərindən, əmək bazarında aktiv siyasətdən, yaxşı işləyən sığorta sistemindən və güclü sosial tərəfdaşlardan təşkil olunmuşdu. Hökumətin bəyanatında qeyd edilib ki, vergilərin kəskin şəkildə azaldılması təhsil və sosial təminat sahəsində qoyulan sərmayələr üçün prioritet kəsb edirdi, işsizlik isə olduqca yüksək idi.

Yeni qanun layihəsi konkret vergi tədbirlərini əhatə edir. Təkliflərdən biri məişət xidmətinə ödənişlər, eləcə də bioyanacaq üçün vergilərin azaldılmasıdır. Hökumətin bəyanatında ekoloji vergilərin azaldılmasına, eyni zamanda atmosferi daha çox çirkləndirən nəqliyyat vasitələri üçün vergilərin artırılmasına da xüsusi diqqət yönəldilib.

## Xəbər lenti

**Rusiya Federasiyası** Maliyyə Nazirliyindən bildirilib ki, nazirlik səkkiz yataqdan ixrac edilən neftin ixrac rüsumuna güzəşt verilməsinin əleyhinədir.

**OECD**-nin baş katibi Anxel Qurriya «Böyük iyirmilik» ölkələrinin maliyyə nazirlərinə təqdim etdiyi məruzədə bəyan edib ki, beynəlxalq ictimaiyyət vergidən yayınmaya qarşı mübarizədə ciddi irəliləyişə nail olub.

**Rusiya**nın Baş naziri Dmitri Medvedev Dövlət Dumasının deputatları qarşısında çıxış edərkən yaxın iki ildə vergi dərəcələrinin hazırkı səviyyədə saxlanılacağını bildirib: «Neftin qiymətinin aşağı olduğu indiki şəraitdə büdcənin vergilərin artırılması hesabına doldurulması kimi yanlış fikir var. Bizim mövqeyimiz isə prinsipial olaraq fərqlidir: 2018-ci ilə qədər vergiləri artırmağı planlaşdırmırıq».

**Yunanıstan** bu il iyulun 1-dən əlavə dəyər vergisinin (ƏDV) dərəcəsini 24 faizə qaldırmağa razılıq verib. ƏDV-nin dərəcəsinin növbəti dəfə artırılması bu ölkəni Avropa İttifaqında Macarıstandan sonra ikinci yerə gətirir - Macarıstanda ƏDV-nin dərəcəsi 25%-dir.

**Yaponiya** hökuməti ölkədə baş vermiş zəlzələdən zərər çəkmiş ərazilərə maliyyə yardımı göstərmək üçün büdcəyə əlavə müddəalar artırılmasını nəzərdən keçirir. Hökumətin bəyanatında gələn il üçün nəzərdə tutulan istehlak vergisinin təxirə salınacağı qeyd edilib: 2017-ci ilin aprelindən istehlak vergisinin dərəcəsinin 8 faizdən 10 faizə qaldırmaq planlaşdırılmışdı.

**Fransa**nın Maliyyə Nazirliyi ABŞ-a məxsus əlüstü yemək restoranları şəbəkəsi olan «McDonald's»dan vergidən yayındığına görə 300 milyon avro pul tələb edir.

**Rusiya** Dövlət Duması müəssisələrin gəlir və xərcləri, işçi heyətin orta sayı və əməkdaşların gəlirlərinin məbləği, ödənilmiş vergi və yığımların məbləği barədə informasiyanın vergi sirri olmasını ləğv edən qanun layihəsini qəbul edib.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Cənubi Afrikada dövlət; 2.Laptevlər dənizində yarımada; 3.Avropada Volqadan sonra ikinci ən uzun çay; 4.Geoloji termin. İkinci kaynozoy dövrünün birinci epoxası; 5.Avropanın ən ucqar şimal nöqtəsi; 6.Vergidən tamamilə azad olunmuş və ya vergi nəzarəti zəif olan zonalar; 7.Ağır neft qalığı; 13.İran İslam Respublikasının Mərkəzi ostanında şəhər; 15.Sahibinə qiymətli kağızları müəyyən müddət ərzində əvvəlcədən müəyyənləşdirilmiş qiymətlə almaq hüququ verən törəmə aləti; 16.Müxtəlif maddələrin hazırlanmasında geniş tətbiq olunan və elektrotexnikada izolyasiya materialı kimi istifadə edilən vulkanizə olunmuş rezin qatışıqlarından alınan bərk maddə; 17.Yaponiyada milli geyim. Qədim zamanlarda həmin ölkədə yaranmış bu geyim növü müasir zamanda idman geyimi kimi də istifadə edilir; 18.Hər hansı prosesin hərəkətverici qüvvəsi, səbəbi; 20.Hürufilik təriqətinin əsasını qoymuş sufi alim, şair, filosof, Nəsiminin ustadı; 21.«Honda» şirkəti tərəfindən yaradılmış humanoid robotu. **Soldan sağa:** 1.Haiti adasında keçmiş fransız koloniyası; 8.Fransa imperatoru Napoleon Bonapartın atının adı, həmçinin boz və ya göy rənglərin çalarlarından biri; 9.«Bəxtiyar» bədii filminə çəkilmiş məşhur Azərbaycan müğənnisi; 10.Qədim Roma tarixçisi; 11.Fransız restoranlarında təqdim olunan torpaq ilbizlərindən ağ çaxırla bişirilmiş xörək; 12.Böyük Moğollar imperiyasının 3-cü padşahı, Baburun nəvəsi, müsəlman ölkələri arasında çadranı qadağan edən ilk hökmdarın adı; 14.Rusiyanın Saxalin vilayətində şəhər; 19.Liviyanın ikinci böyük şəhəri; 21.Böyük qan dövranının ən böyük arterial damarları; 22.Kişi adı. Muradına yetən, məqsədinə müvəffəq olan, istəyinə çatan mənalarını daşıyır; 23.Don Kixotun arıq yabısının adı; 24.Azərbaycan folklorunda səxavət simvolu olan şəxs adının hissəsi. Hatəm sözünə qoşulur; 25.Əmtəənin reklamı ilə bağlı məqsədli şəkildə məşğul olan şəxs və ya şəxslər qrupu.



Don Kixotun arıq yabısının adı

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Mədinə; 2.Liliput; 3.Kamil *(Cəlilov)*; 4.Əlamət; 5.Mazaçço; 6.Durov (*Lev)*; 7.Renons; 13.Amur; 15.Buddizm; 16.Ekstaz; 17.Turneb *(Adrian)*; 18.Rəhman; 20.Nyerd; 21.Cavid. **Soldan sağa:** 1.Məlikməmməd; 8.Dilemma; 9.Zarin; 10.Nepal; 11.Ərçivan; 12.Strax; 14.Lobbi; 19.Kenquru; 21.Ciddə; 22.Tven *(Mark)*; 23.Anevrizm; 24.Zod; 25.Ombudsman.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 9000

## idman

# Velosipedçilərimiz ikiqat çempionluğu bayram ediblər




Azərbaycanın kontinental velosiped komandası «Synergy Baku» Xorvatiyada təşkil edilən 2.1 kateqoriyalı «Tour of Croatia» yürüşündə çıxışını ikiqat çempionluqla başa vurub. Azərbaycan Velosiped İdmanı Federasiyasının yaydığı məlumata görə, dünyanın ən güclü kollektivlərini qabaqlamaqla komanda hesabında çempion olan «Synergy Baku», həm də yürüşün ən qiymətli köynəyini əldə edib.

Dördüncü mərhələdən etibarən yarış liderinə verilən «qırmızı köynəy»i ələ keçirən Matiya Kvasinanın bu üstünlüyünü qoruması, həmçinin komanda hesabında liderliyi saxlamaq üçün «Synergy Baku»nun qarşısına əsas izləyiciləri özündən irəli buraxmamaq tapşırığı qoyulub ki, velosipedçilərimiz də bu vəzifənin öhdəsindən məharətlə gəliblər. 158 km-dən ibarət sonuncu, 6-cı mərhələdə Matiya Kvasina finişi 21-ci keçsə də, ümumi təsnifatda ilk pillədə qalıb və bununla da ən yaxın izləyicisi, Rusiyanın «Tinkoff» Dünya Turu klubunun üzvü Yesper Hanseni 24 saniyə qabaqlamaqla «Tour of Croatia»nın «lider köynəy»ini qazanıb.

Sonuncu mərhələnin nəticəsi «Synergy Baku»ya ümumkomanda hesabında liderliyini qorumağa və çempion olmağa imkan verib - klubumuz ən yaxın izləyicisi, Sloveniyanın «Adria Mobil» kollektivini 4 dəqiqə 15 saniyə qabaqlayıb. «Synergy Baku»nun digər üzvlərinə gəlincə, Kiril Pozdnyakov ümumi təsnifatda 7-ci, ölkəmizi «Rio-2016» Yay Olimpiya Oyunlarında təmsil edəcək Elit yığma komandamızın üzvü Maksim Averin isə 15-ci olub.

«Synergy Baku»nun daha bir nümayəndəsi Aleksandr Surutkoviç isə Bosniya və Herseqovinada təşkil edilən «Belgrade - Banjaluka II» yürüşündə çıxış edib. Bir gün öncə bu yarışın Serbiyadakı bölümündə 2-ci olan Surutkoviç bu dəfə 3-cü yeri tutub. Xatırladaq ki, 6 günlük yarışda Qazaxıstanın «Astana», Cənubi Afrika Respublikasının «Dimension Data», İsveçrənin «İAM Cycling», Rusiyanın «Tinkoff» və ABŞ-ın «Trek Sagefredo» kimi Dünya Turu komandaları, həmçinin 7 peşəkar kontinental və 9 kontinental komanda çıxış edib.

# Sərbəst güləşçilərimiz «Rio-2016»da tam heyətlə iştirak edəcək




Monqolustanın paytaxtı Ulan-Bator şəhərində 2016-cı il Rio-de-Janeyro Yay Olimpiya Oyunlarına vəsiqə verən I Dünya təsnifat turniri başa çatıb. Qadın güləşi yarışlarında turnirin finalına yüksələn hər bir güləşçi Olimpiadaya vəsiqəni təmin edib. Sərbəst və yunan-Roma güləşi yarışlarında isə finalçılarla yanaşı, bir üçüncü yerin sahibi də Olimpiya vəsiqəsi qazanıb.

Turnirin son günündə sərbəst güləşçilər mübarizə aparıblar. 57 kiloqram çəki dərəcəsində mübarizə aparan Mircəlal Həsənzadə ilk görüşündə Guamdan Ethan Tomapanı 57 saniyə ərzində tam üstünlüklə məğlub edib.

Ardınca Moldovadan Aleksandru Chirtoaca üzərində qələbə qazanan güləşçimiz yarımfinala yüksəlib. Hindistan təmsilçisi Sandip Tomarla gərgin keçən qarşılaşmada hesab bərabər olsa da, xalların keyfiyyətinə və son xalı qazandığına görə Mircəlal Həsənzadə finala yüksəlib və Rio Olimpiadasına vəsiqəni təmin edib. Final görüşündə isə güləşçimiz rumıniyalı İvan Guideaya uduzub və I Dünya təsnifat turnirinin gümüş medalına yiyələnib.

Bu, güləş yığmalarımızın qazandığı 13-cü, sərbəst güləşçilərimizin isə 6-cı Olimpiya vəsiqəsi olub. Beləliklə, sərbəst güləş yığmamız Olimpiadada tam heyətlə iştirak edəcək. Məlumat üçün bildirək ki, güləş yığmalarımız buna qədər Rio-de Janeyro Olimpiya Oyunlarına 12 vəsiqə qazanıb. Bunlardan 5-i sərbəst, 4-ü yunan-Roma, 3-ü isə qadın güləşçilərin payına düşür.

## George Haci Rusiya klubunda...



Rusiyanın «Rubin» klubuna yeni baş məşqçi təyin olunub. Rusiya mətbuatının yaydığı məlumata görə, Kazan təmsilçisinin baş məşqçi vəzifəsinə tanınmış rumıniyalı mütəxəssis George Haci gətirilib. 51 yaşlı mütəxəssis mövsümün sonuna qədər Premyer Liqa təmsilçisini çalışdıracaq. Vaxtilə Türkiyənin «Qalatasaray» komandasında oynayan, sonradan isə həmin klubda baş məşqçi kimi fəaliyyət göstərən ulduz futbolçu son vaxtlar ölkəsinin «Vitorul» klubunda baş məşqçi olub.

Xatırladaq ki, bir müddət əvvəl Ermənistan Rumıniya futbolunun canlı əfsanəsini yığmanın baş məşqçi postuna dəvət etsə də o, bu təklifi rədd etmişdi.

## mozaika

## Robot müştərilərə kömək edir

texnologiya

«Hitachi» şirkəti alıcılara xidmət üçün nəzərdə tutulan «EMİEW» insanabənzər robotun üçüncü versiyasını təqdim edib. Şirkətin press-relizində deyilir ki, robot köməyə ehtiyacı olan mağaza müştərilərini müəyyən etməyi bacarır.




Mağazada alıcıları inamla müşayiət etmək və onlardan geri qalmamaq üçün «EMİEW3» saatda 6 kilometrə qədər sürətlə hərəkət edir. Robot yıxılanda ayağa durmağı, döngəyə yaxınlaşdıqda isə tini dönən müştəri ilə toqquşmamaq üçün sürəti azaltmağı bacarır.

«EMİEW3» müştərilərə təklikdə yox, digər robotlarla birgə xidmət göstərəcək. Vahid şəbəkənin bütün iştirakçıları bir-biri ilə qarşılıqlı fəaliyyətdə olacaq. Məsələn, satışı həyata keçirən robot alış haqqında məlumatı robot-kassirə ötürə bilər.

«EMİEW3»ün daha bir maraqlı xüsusiyyəti ticarət mərkəzlərində mövcud olan səs-küy fonunda alıcı-həmsöhbətin səsini ayırd etmək imkanıdır.

Uğurlara baxmayaraq, şirkət yeni «EMİEW» robotunu 2018-ci ildən tez istehsala buraxmayacaq.

## Butulka havanı suya çevirir

ixtira

ABŞ alimi Kristofer Retezar hava və işığdan su hasil edə bilən inqilabi «Fontus Airo» və «Fontus Ryde» adlanan butulkalar hazırlayıb. «Fontus Airo» və «Fontus Ryde» müvafiq olaraq piyada və velosiped səyahətləri üçün nəzərdə tutulub. Hava butulkanın qapağının içində soyuyaraq xüsusi səthlərdə kondensasiya edilir və filtrasiya prosesindən keçdikdən sonra əsas tutumun içinə daxil olur.

«Fontus Airo» butulkası üçün qoruyucu çexol rolunu da oynayan xüsusi günəş batareyası ilə işləyir. «Fontus Ryde» modeli velosipedin ramasına bərkidilərək hərəkət zamanı havanı avtomatik toplayır və əlavə enerji mənbələri tələb etmir. Butulkanın alt hissəsində suyun minerallaşdırma prosesini həyata keçirən xüsusi kapsullar yerləşir. Bunun sayəsində istifadəçi fasiləsiz su ilə təmin olunur.

«Fontus Airo» və «Fontus Ryde» butulkaları, müvafiq olaraq, 200 və 165 dollara satılır.




memarlıq inciləri

## Memarlığın şah əsərlərindən biri

İran İslam Respublikasının Mazandaran vilayətində yerləşən bu dəmir yolu körpüsü dünya memarlığının incilərindən biri hesab edilir. Körpü 1936-cı ildə avstriyalı mühəndis Uolter İnger tərəfindən inşa edilib və iki sıldırım qayanı birləşdirir.

Deyilənlərə görə, tikintidən sonra körpü ilə tanış olan Rza şah Pəhləvi belə hündürlükdə tikilən körpünün üzərindən qatarların keçə biləcəyinə inanmır və U.İngeri yanına çağırıb deyir ki, sən mənə və xalqıma qarşı sui-qəsd hazırlamısan. Ona görə də ilk qatar keçərkən sən ailənlə birlikdə körpünün altında dayanmalısan. Şah bu sözlərdən mühəndisin incidiyini görəndə, onu tikintini uğurla başa çatdırması münasibətilə təbrik edir və zarafat etdiyini bildirir. İlk qatar körpünün üzərindən keçir və onun möhkəm olduğu sübuta yetirilir.

İranın cənub əyalətlərini şimal əyalətləri ilə birləşdirən Vərəsk körpüsü çox əhəmiyyətli rola malikdir. Bu bölgədə dəfələrlə zəlzələ və digər təbii fəlakətlərin baş verməsinə baxmayaraq, uzunluğu 273, hündürlüyü isə 110 metr olan körpüyə heç bir ziyan dəyməyib. Tikintidə metaldan istifadə edilməyib, sement və kərpicdən inşa edilən körpü 80 ildir ki, fəaliyyət göstərir.

İranın yaşlı adamları danışırlar ki, mühəndis U.İngerin özü də yaratdığı əsərə heyran olmuşdu. Mühəndis vəsiyyətinə əməl olunaraq, onun məzarı körpünün yaxınlığındakı eyni adlı kəndin qəbiristanlığındadır. İranın bu bölgəsi xarici turistləri cəlb edən gözəl bir guşədir.



## Qızıl qiymətinə... çay yarpağı

maraqlı

Çinin mərkəzində yerləşən Xunan əyalətində 410 il yaşı olan çay kolundan növbəti ilin məhsulunu yığmaq hüququ 600 min yuana (83 min dollar) satılıb. 4,5 metr hündürlüyündə olan kol Baotszin bələdiyyəsində, mənası Çin dilində qızıl mənasını verən Xuantszin kəndində yetişdirilir. Ümumilikdə burada Min sülaləsi (1368-1644) dövründən günümüzə qədər gəlib çatan 2 min çay kolu mövcuddur.

Qoca çay kolu Xunan əyalətinin qeyri-maddi irs siyahısına salınan yeganə canlı bitkidir. Onun yarpaqları yalnız ildə bir dəfə - aprel ayında yığılır. Ümumilikdə koldan təxminən yarım kiloqram «qızıl çay» yığmaq mümkün olur. Bu ilin hərracında alıcılardan biri 1 kiloqram «qızıl çay» yarpağına görə 1 kiloqram qızılın qiyməti qədər (225 min yuan) pul ödəyib. 2011-ci ilin hərracında isə 100 qram «qızıl çay» 98 min yuana satılmışdı.

**Müdriklər deyib ki...**

*«Bacara biləcəyinə inanan bacarır, inanmayansa bacarmır. Bu, mübahisəsiz bir qanundur».*

*Pablo Pikasso (1881-1973)*

